QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 224 (5944) **4 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# İlham Əliyev: "Azərbaycan hazırda çox aktiv islahatlar mərhələsindədir"



Prezident İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibini qəbul edib

Səh 2

## Almaniyanın "Top Energy News" portalı TANAP qaz kəmərindən yazır

Bax 13

*Almaniyanın "Top Energy News" portalında yerləşdirilən yazıda Azərbaycan və Türkiyə Prezidentlərinin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP təbii qaz kəmərinin Avropaya birləşən hissəsinin açılış mərasimində iştirak etdikləri bildirilir. AZƏRTAC xəbər verir ki, məqalədə TANAP barədə, onun Cənubi Qafqaz Boru Kəməri və TAP ilə birgə 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizini təşkil etdiyi qeyd olunub. Xəzərin Azərbaycan...*

## Ermənistanda yenə də etiraz aksiyaları baş qaldırıb

Bax 14

*"Daşnaksütyun" Gənclər Birliyinin nümayəndələri polis kordonundan keçərək nazirlik binasına girməyə çalışırlar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, "Daşnaksütyun" Gənclər Birliyinin nümayəndələri Təhsil, Elm, Mədəniyyət və İdman naziri ilə görüşmək fürsəti əldə etmədiyindən Araik Arutyunyanı müstəqil görüşməyə çağırıblar. Gənclər polis kordonunu sındıraraq nazirlik binasına girməyə çalışırlar. Artıq nazirlik...*

## Vüsal Qasımlı: "Dövlət idarəetmə islahatları Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun aparılır"

Bax 5

*İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİKTM) "İslahat icmalı" dövlət idarəetmə sistemində aparılan islahatlara həsr olunub. AZƏRTAC xəbər verir ki, mərkəzin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq qanunverici, icraedici və məhkəmə hakimiyyəti, habelə yerli...*

## "TANAP-ın açılışı bir daha Türkiyə-Azərbaycan dostluğunu ifadə edir"



2

## Türkiyə mətbuatı Prezident İlham Əliyevin TANAP-ın Avropa xəttinə birləşməsi mərasimindəki nitqinə geniş yer ayırıb



5

## Xalq uğurlu struktur islahatlarını dəstəkləyir!



7

## Milli Məclisin növbəti plenar iclası keçirilib



6

## Sergey Lavrov: Rusiya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı inama və etibara əsaslanır



6

## Ekspert: Prezident İlham Əliyevin yürütdüyü siyasətin bütün konturları göz önündədir



8

12

## Ərdoğan açıqladı: NATO-nun yenilənməsi qaçılmazdır



9

## Xarici və ölkə mediasının nümayəndələri Naxçıvanda olublar



12

## Sinoptiklər dən xəbərdarlıq: Qar yağacaq



# "TANAP-ın açılışı bir daha Türkiyə-Azərbaycan dostluğunu ifadə edir"

## *Prezident İlham Əliyev Türkiyənin Nəqliyyat və İnfrastruktur nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, "Bakutel" sərgisi həm Azərbaycanın bu sahədəki nailiyyətlərini nümayiş etdirir və dost ölkələrin də texnoloji inkişafını əks etdirir:**

-Xoş gəlmisiniz.

Çox şadam ki, "Bakutel" sərgisində iştirak edirsiniz. Biz çox məmnunuq ki, Türkiyə bu sərgidə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Bu, çox önəmli bir tədbirdir, uzun illər ərzində ənənəvi olaraq keçirilir. Əlbəttə ki, həm Azərbaycanın bu sahədəki nailiyyətlərini nümayiş etdirir və dost ölkələrin də texnoloji inkişafını əks etdirir.



Bildiyiniz kimi, hörmətli Prezident, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla biz bu günlərdə TANAP-ın açılışını qeyd etdik. Bu, bir daha Türkiyə-Azərbaycan dostluğunu ifadə edir. Bu, dostluq layihəsidir. Çünki Türkiyə və Azərbaycan birgə iradə göstərmişdir. Bildiyiniz kimi, Azərbaycan qazını Avropaya çıxarmaq üçün uzun illər müzakirələr gedirdi, Nabukko layihəsi üzərində dayanmışdılar. Ancaq onun texniki və maliyyə tərəfi həll edilməmişdi. Əslində, biz bir neçə il itirdik. Nəhayət, 2012-ci ildə birgə qərarla tarixi İstanbul anlaşması imzalandı və TANAP-a yol açdı. Onu da bildirməliyəm ki, TANAP-ın inşasında iştirak edən şirkətlərin böyük əksəriyyəti Türkiyə şirkətləridir. İşlərin təqribən 80 faizini Türkiyə şirkətləri görüb. Biz artıq bu nəhəng, böyük layihəni istismara verdik. Bu, doğrudan tarixi nailiyyətdir.

Sizin rəhbərlik etdiyiniz sahədə də çox uğurlu əməkdaşlıq aparılır. Əlbəttə, ilk növbədə, biz Bakı-Tbilisi-Qars dəmir yolunun inşasını qeyd etməliyik. Bu da tarixi layihədir. Azərbaycan Türkiyə üzərindən Asiya ilə Avropanı dəmir yolu ilə birləşdirdi. Bunu da tarixdə ilk dəfə olaraq biz icra etmişik. İndi yüklərin daşınması da artır. Hazırda Orta Asiya ölkələrindən, Çindən, hətta Əfqanıstandan yüklər bu yolla dünya bazarlarına çıxarılır. Əlbəttə ki, bu, Türkiyə-Azərbaycan birliyi, dostluğu sayəsində mümkün olmuşdur. Bu, bizim mövqelərimizi möhkəmləndirir, gücümüzü artırır. Əminəm ki, bu yol əbədi çalışacaq və daşınan yüklərin həcmi artacaqdır.

Bir də ki, Türkiyədə texnoloji inkişaf çox sürətlə gedir. Biz bunu izləyirik, buna sevinirik. Sənaye sahəsində, informasiya texnologiyaları sahəsində çox böyük uğurlar əldə edilib. Türkiyədə elmi potensial da çox güclüdür. Əlbəttə ki, biz bu sahədə də daha sıx əməkdaşlıq etmək istəyirik. Çünki dünyanın gələcək inkişafı böyük dərəcədə bu innovasiyalardan, texnoloji inkişafdan asılıdır. Burada birgə elmi araşdırmalar, tətbiqi tədbirlər əlbəttə ki, bizim əməkdaşlığımızı daha da gücləndirəcək. Bir sözlə, qarşıda işlər çoxdur. Əminəm ki, biz bütün işləri TANAP, Bakı-Tbilisi-Qars kimi vaxtında icra edəcəyik.

X X X

Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhan:

- Hörmətli cənab Prezidentim.

Azərbaycanın qlobal səviyyədə təşkil etdiyi "Bakutel" sərgisi ilə əlaqədar bir daha qardaş ölkədə olmaqdan məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

İşlərinizin çoxluğuna baxmayaraq, bizi qəbul etdiyiniz üçün də təşəkkürlərimi bildirmək istəyirəm. Sizə hörmətli Prezidentimizin salamlarını gətirmişəm.

Fürsətdən istifadə edərək, indiyədək çox uğurlu şəkildə həyata keçirilən və beynəlxalq səviyyədə etibarı yüksək olan Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel"in 25-ci ildönümünü hökumətimiz və türk milləti adından ən səmimi hisslərimlə təbrik edir və bundan sonrakı fəaliyyətinizdə də uğurlar diləyirəm.

Azərbaycan Sizin rəhbərliyinizlə bütün sahələrdə mühüm islahatlar həyata keçirir, ciddi irəliləyişlər əldə edir. Əldə olunan hər irəliləyişdən, hər uğurdan məmnunluq duyuruq. Azərbaycanın bu uğurları artırmaqda və bölgəmizin parlayan ulduzu olmaqda davam edəcəyinə ürəkdən inanırıq.

Bu gün kənardan baxdıqda görürük ki, Azərbaycan siyasi və ictimai sabitliyi iqtisadi və bəşəri zənginliyə çevirmişdir. Qardaş xalqlarımız ümummilli lider mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı ilə güclərini ölkələrimizin və bölgəmizin faydasına uyğun olaraq birləşdirmişlər.

Sarsılmaz təməl üzərində qurulmuş əlaqələrimiz böyük bir mərhələ keçərək strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmışdır. Həqiqətən də bir çox sahədə birlikdə mühüm layihələr gerçəkləşdiririk. Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri kimi iki böyük, mühüm layihəni həyata keçirərək qlobal və regional baxımdan enerji strategiyamızı da inkişaf etdirdik. Bundan başqa, XXI əsrin layihəsi olan 45 milyard dollarlıq Cənub Qaz Dəhlizi layihəsi xüsusilə Azərbaycanın və Türkiyənin səyləri və maliyyə mənbələri hesabına gerçəkləşdirilməyə başlanmışdır.

Möhtərəm cənab Prezident, hörmətli Prezidentimiz ilə Sizin əhəmiyyətli töhfəniz və güclü iradənizlə başladılan bu layihələr Türkiyə və Azərbaycan üçün yeni imkanlar olaraq ortaq gücə çevrilmək hədəfinə mühüm dəstək təmin etməkdədir.

Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın acısı acımız, sevinci sevincimizdir" və ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarından hərəkət edərək Türkiyə və Azərbaycan bu günə qədər olduğu kimi, bundan sonra da hər sahədə bir-birinin yanında yer almaqda davam edəcəklər. Bundan sonra bizim öhdəmizə düşən vəzifə kədəri də, sevinci də ortaq olan qardaş ölkələrimiz arasındakı strateji tərəfdaşlığı cənab Prezidentimiz və Zati-alinizin liderliyi ilə yeni layihələrlə daha da irəlilətməkdir. Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.



### Rəsmi xronika

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev XXV beynəlxalq "Bakutel 2019" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin iştirakçılarına təbrik məktubu ünvanlayıb.

***

Prezident İlham Əliyev Saleh Məhərrəmovun Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Saleh Heydər oğlu Məhərrəmov Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***

Prezident İlham Əliyev Elbrus İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

***

Dövlət başçısının digər Sərəncamı ilə Elbrus İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilib.

***

Prezident İlham Əliyev Yardımlı rayonunda İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev: “Azərbaycan hazırda çox aktiv islahatlar mərhələsindədir”

## Prezident İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaonu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdən məmnunluğunu ifadə edən Baş katib Haulin JAO dedi:***

-Siz mənim indiyədək dünyada ən çox görüşdüyüm Prezidentsiniz. “Bakutel” sərgisi hər il keçirilən tədbirdir. Bu il 25-ci ildönümünü qeyd edir.

Prezident İlham Əliyev: Bəli, doğrudur.

Haulin Jao: Həmçinin bu, indiyədək ən çox ziyarət etdiyim tədbirdir.

Prezident İlham Əliyev: Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir və Azərbaycanın İKT sektorunun inkişafına verdiyi önəmi əks etdirir. Əlbəttə, sizin şəxsən sərgidə iştirakınız çox vacibdir. Çünki bu, Beynəlxalq Telekommunikasiya İttifaqı üçün tədbirin əhəmiyyətli olduğunu göstərir. Biz, həmçinin bunu sözügedən sektorda gördüyümüz işlərə verilən qiymətin göstəricisi hesab edirik. Qeyd etdiyiniz kimi, bu, 25-ci sərgidir. İldən-ilə marağın artdığını görürük. Əslində, bu sərgi zamanı cari ildə əldə etdiyimiz nailiyyətlər barədə də danışa bilərik. Düşünürəm ki, biz İKT sektorunda çox yaxşı inkişafa nail olmuşuq və bu sektor bizim ölkənin əsas prioritetlərindən biri olaraq qalır. Çünki o, çoxlu yeni ideyalar yaradır, yeni texnologiyalar gətirir, ölkəmizi müasirləşdirməyə yardım edir.

Azərbaycan hazırda çox aktiv islahatlar mərhələsindədir. Struktur islahatları, siyasi inkişafla, şəffaflıqla bağlı islahatlar. Biz çox yaxşı nəticələr görürük. Azərbaycan çox sabit ölkədir və əhalinin böyük əksəriyyəti siyasətimizi dəstəkləyir. Bu, güclü siyasi iradənin nümayişinə, həmçinin iqtisadi və sosial həyatdakı böyük nailiyyətlərə əsaslanır. Cari il də bu baxımdan çox nəzərəçarpan olub. İnsanların gündəlik həyat şəraitinin yaxşılaşdırılması, sosial proqramların həyata keçirilməsi, maaş və təqaüdlərin artırılması - bütün bunların hamısı, təbii ki, bizim inkişafımızın göstəricisidir. Əlbəttə, iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi İKT sektoru da qarşıdan gələn illərdə çox vacib rol oynayacaq. Bu sektorun inkişafı bizə islahatlarda daha çox səmərə əldə etməyə kömək edəcək. Təbii ki, bizim ölkəmizə göstərdiyiniz diqqətə görə sizə şəxsən təşəkkür etmək istəyirəm. Şadam ki, hər il bu sərgidə bizi ziyarət edirsiniz. Bunun sayəsində biz çox səmərəli əməkdaşlıq qura bilmişik. Beləliklə, mən sizə minnətdaram və Bakıda xoş vaxt keçirməyinizi arzu edirəm.



Haulin Jao: Çox sağ olun, cənab Prezident. Bəli, doğrudan da mən Azərbaycanda İKT-nin sürətlə inkişaf etdiyini görürəm. Bütün digər ekosistemləri əhatə etmək üçün çoxlu yeni İKT tətbiqləri artıq var və onlar bütün ekosistemlər üzrə geniş yayılıb. Təkcə bu il “Bakutel”də nəinki daha çoxsaylı ölkələrin iştirak etdiyini, həmçinin çoxlu yeni məhsulları və yeni tətbiqləri görürəm. Məsələn, mən sərgidə gördüm ki, “məlumatların böyük həcmi” haqqında geniş söhbət gedirdi, süni intellekt məhsulları haqqında çoxlu danışdılar. Bunlar bir-birindən fərqlənir. Həmçinin bu gün buraya gəlməzdən əvvəl mən gənclərin hazırladıqları stendlərlə tanış oldum. Onlarla müəyyən ünsiyyətim oldu və bu uşaqların çox istedadlı olduqlarını aşkar etdim.

Sonda xatirə şəkli çəkdirildi.

# İlham Əliyev: “Əminəm ki, 2020-ci il də əməkdaşlıq üçün uğurlu olacaq”

## Prezident İlham Əliyev İranın Rabitə və İnformasiya Texnologiyaları nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bu il ikitərəfli əlaqələr üçün çox məhsuldar il olub:***

- Xoş gəlmisiniz. Sizi yenidən görməyə şadam. Şadam ki, İran sərgidə yüksək səviyyədə - nazir səviyyəsində iştirak edir. Keçən dəfə də sərgi günlərində sizinlə görüşmüşəm. Əminəm ki, bütün sahələrdə olduğu kimi, rəhbərlik etdiyiniz sahədə də əməkdaşlığımızın gələcəyi çox yaxşı olacaq.

Bildiyiniz kimi, oktyabrın sonunda Prezident Ruhani ilə mənim görüşüm olub. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Son bir neçə il ərzində 10-dan çox görüş oldu. Onların hamısı da çox məhsuldar idi. Bir çox məsələlər öz həllini tapdı. Şadam ki, əldə edilmiş razılaşmalar həyatda öz əksini tapır.

Bu gün bizim Baş Nazirin müavini Şahin Mustafayev İranda səfərdədir və gələcək əməkdaşlıq haqqında danışıqlar aparacaq. Əlbəttə, baxmayaraq ki, bir çox məsələlər artıq reallaşıb, yenə də həllini gözləyən məsələlər var. Əminəm ki, onlar da öz həllini tapacaq. Son illərdə, xüsusilə nəqliyyat, energetika, ticarət sahələrində çox yaxşı nəticələr əldə etdik. Eyni zamanda, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı. Bu da tarixi nailiyyətdir. Bir sözlə, ikitərəfli gündəlik kifayət qədər genişdir. Bu il ikitərəfli əlaqələr üçün çox məhsuldar il olmuşdur. Əminəm ki, 2020-ci il də əməkdaşlıq üçün uğurlu olacaq. Bir daha xoş gəlmisiniz.

x x x

İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Nazir Məhəmməd Cavad Azəri Cəhromi:

- Allahın adı ilə. Mən çox şadam ki, bu il yenidən bu sərgi çərçivəsində, Azərbaycana səfərim çərçivəsində Sizinlə görüşürəm. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Bu günlərdə bizim ölkədə büdcə müzakirələri gedir. Mən səhər-axşam büdcə müzakirələrində, iclaslarda iştirak edirəm. Dünən axşam cənab Prezident doktor Ruhani ilə danışırdım. Ona dedim ki, mən Azərbaycana səfər edirəm və Sizə xüsusi salamlarını çatdırdı. Cənab Şahin Mustafayev ilə də biz dünən axşam aeroportda görüşdük və on dəqiqəlik söhbətləşdik, müzakirələr apardıq.



Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.



# Azərbaycan-Rusiya əlaqələrində yeni nəfəs

*Prezident İlham Əliyev: "İctimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib"*

***Bu gün Azərbaycan dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurub və bu əlaqələr bir çox sahələri əhatə edir. O cümlədən, Azərbaycanla Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr və sazişlər imzalanır. Çünki Azərbaycan-Rusiya əlaqələri çoxəsrlik tarixə malikdir. Bu əlaqələr Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə daha böyük inkişaf yoluna qədəm qoymuşdur. Sevindirici hal odur ki, bu gün Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin də fəaliyyətinin əsas istiqamətlərindən birini beynəlxalq əməkdaşlığın genişləndirilməsi təşkil edir. Əsasında mehriban qonşuluq siyasəti və iki dövlət başçısının möhkəm dostluğu dayanan Azərbaycan-Rusiya münasibətləri yeni uğurlara imkanlar yaradır.***

Məhz bu baxımdan, Azərbaycan-Rusiya arasında yeni nəfəsin olması aydın şəkildə görünməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, mütəmadi olaraq, keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib.

## Mehriban xanım Əliyevanın Rusiyaya səfəri tərəfdaşlığın gücləndirilməsinin növbəti təzahürüdür

Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da, bu münasibətlərin inkişafında xidmətləri kifayət qədərdir. Elə bu günlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiyaya rəsmi səfəri tərəfdaşlığın gücləndirilməsinin və qarşılıqlı faydalılığın artırılmasının növbəti təzahürü kimi dəyərləndirilməlidir. Rəsmi səfər çərçivəsində Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və hökumət sədri Dmitri Medvedevlə keçirilən görüşlər, həmçinin, Mehriban xanımın Rusiya Federasiyasının "Dostluq" ordeninə layiq görülməsi iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişafına daha bir əyani sübutdur.

Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verdiyini bildirən Mehriban xanım Əliyeva ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirdiyini diqqətə çatdırıb: "Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin, hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri, mütəmadi olaraq, görüşlər keçirirlər. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir".

## Sergey Lavrov: "Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfəri ikitərəfli münasibətlərə ciddi təkan verəcək"

Dekabrın 2-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına etdiyi səfərin ikitərəfli münasibətlərə ciddi təkan verəcəyini bildirib: "Biz Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərini, onun Prezident Putinlə, Baş nazir Medvedevlə, Federasiya Şurasının sədri Matviyenko ilə görüşlərini, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun çox mühüm açılış mərasimində, Regionlararası Forumda iştirakını yüksək qiymətləndirmişik və bu səfərin gedişində müzakirə edilən təşəbbüsləri biz hökmən həyata keçirəcəyik. Bu təşəbbüslər, o cümlədən, bizim hökumətlərarası iqtisadi əməkdaşlığımıza yeni bir mövzu - innovasiyalar və yüksək texnologiyalar mövzusunun əlavə edilməsinə aiddir, xüsusi yol xəritəsi yaradılacaq".



S.Lavrov Mehriban xanım Əliyevanın Rusiyaya səfərinin digər bir məqamının, Rusiya-Azərbaycan Gənclər Forumunun müntəzəm keçirilməsinə təkan verəcəyini vurğulayıb: "Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərinin daha bir maraqlı və hesab edirəm ki, çox vacib nəticəsi Rusiya-Azərbaycan Gənclər Forumunun daha müntəzəm keçirilməsi barədə razılaşma oldu. Bu, varislik baxımından, tarixi yaddaşın qorunub-saxlanması və həm Rusiyada, həm də Azərbaycanda bizim gənc nəslin münasibətlərimizə həmişə xas olmuş dostluq və mehriban qonşuluq ruhunda tərbiyəsi baxımından, prinsipial əhəmiyyət kəsb edir. Həm regional, həm qlobal, həm də universal beynəlxalq təşkilatlarda əməkdaşlığımıza gəldikdə, biz sıx qarşılıqlı fəaliyyəti, həmişə bir-birinin mövqelərini nəzərə almaq istəyini çox yüksək qiymətləndiririk".

S.Lavrov iki ölkə arasında görüşlərin keçirilməsinin maraq doğuran məsələlərin həllində böyük əhəmiyyət kəsb edəcəyini də söyləyib: "Biz bundan sonra da, ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir. Biz həm Vyana sammitində, həm sonradan nazirlərin Moskva görüşündə etimad tədbirləri, humanitar əlaqələrin, kütləvi informasiya vasitələri xətti ilə əlaqələrin nizamlanması barədə əldə edilmiş razılaşmaların bu il təsdiqlənməsində və həyata keçirilməsində maraqlıyıq. Onlar tədricən reallaşır və ümidvaram ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu həftə keçiriləcək görüşü bu prosesləri əlaqələndirməyə imkan verəcək. Eyni zamanda, Sizinlə razıyam ki, siyasi nizamlama, uzunmüddətli nizamlama baxımından, hələ çox iş görülməlidir. Burada Sizin bu tezisinizi tam dəstəkləyirəm ki, hər iki tərəfin bəyəndiyi əsas prinsiplərə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinmək lazımdır".

Bir sözlə, bu gün Prezident İlham Əliyevin dediyi kimi, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib və məhz bunun nəticəsidir ki, ölkə başçısı Prezident İlham Əliyev bu münasibətləri ən yüksək şəkildə dəyərləndirir.

**RƏFİQƏ KAMALQIZI**

# Türkiyə mətbuatı Prezident İlham Əliyevin TANAP-ın Avropa xəttinə birləşməsi mərasimindəki nitqinə geniş yer ayırıb




Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsinin Sarıcalli kəndi ərazisində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Prezident İlham Əliyevin mərasimdə nitqindəki əsas fikir və çağırışlar, həmçinin dövlətimizin başçısının mehriban və səmimi qarşılanması Türkiyə KİV-lərinin manşet materialı olub.

AZƏRTAC xəbər verir ki, Anadolu, İHA və digər xəbər agentlikləri, "Akşam", "Sabah" və "Yeni Şafak", "Hürriyet" qəzetləri, TRT HABER, CNN Türk, TRT Avaz, aHBR və başqa televiziya kanalları mövzu ilə bağlı çeşidli məlumatlar yayıblar. Açılış mərasiminə qədər də Türkiyə KİV-ləri "Enerjinin İpək Yolu" başlığı ilə Azərbaycan qazının Avropaya nəqlini gerçəkləşdirən layihə, onun ideya kimi ortaya çıxması, bununla bağlı qəbul olunan tarixi qərarlar və onların icra vəziyyətinə dair geniş informasiyalar yayıblar. Canlı yayımda nümayiş olunan açılış mərasimində Prezident İlham Əliyevin nitqi tam şəkildə efirə verilib. Həmçinin nitqdəki əsas fikirlər alt yazılarla ekranlarda əksini tapıb.

Dövlətimizin başçısının mərasimdəki nitqini oxuculara "Azərbaycan Prezidenti: Türkiyə bu gün beynəlxalq güc mərkəzi olub" sərlövhəsi ilə təqdim edən Anadolu agentliyi və "Yeni Şafak" qəzeti nitqdən bir neçə sitat veriblər. Digər KİV-lər də Prezident İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Respublikasının əldə etdiyi tarixi uğurlar, həmçinin Azərbaycan-Türkiyə qardaşlığı sayəsində göstərilən siyasi iradənin nəticələrinə dair fikirlərini sərlövhəyə çıxarıblar.

Türkiyə mediası Azərbaycan Prezidentinin dövlətimizin enerji siyasətinin istiqamətləri, nəticələr və proqnozlar barədə fikir və düşüncələri əsasında rəylər yaymaqda davam edir. Energetika üzrə ekspertlərin Prezident İlham Əliyevin toxunduğu məsələlər və statistik rəqəmlər üzərində mühakimələrinə də rast gələ bilirik. TANAP-ın Avropa xəttinə qovuşması mərasimini əks etdirən yazılar açılış mərasimindəki nitqlərdən vedeomateriallar, o cümlədən çoxsaylı fotolarla birlikdə yayılıb.

# Vüsal Qasımlı: "Dövlət idarəetmə islahatları Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun aparılır"

***İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİKTM) "İslahat icmalı" dövlət idarəetmə sistemində aparılan islahatlara həsr olunub.***

AZƏRTAC xəbər verir ki, mərkəzin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq qanunverici, icraedici və məhkəmə hakimiyyəti, habelə yerli özünüidarəetmə və maliyyə xidmətləri üzrə tənzimləmə və nəzarət sisteminin islahatlarının dövlət idarəetməsinin səmərəliliyini artırmaqla ilk növbədə vətəndaşların və biznesin maraqlarına xidmət etdiyini deyib.

"Strateji Yol xəritələrinə uyğun olaraq xarici şokların mənfi təsirindən uzaqlaşandan və yeni hərəkətverici iqtisadi drayverlər hesabına inkişaf xətti bərpa edildikdən sonra Prezident İlham Əliyev tərəfindən dövlət idarəetmə islahatlarının yeni səhifəsinin açılması tarixi qanunauyğunluq idi. Dövlət idarəetmə islahatlarının məqsədi dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması və Azərbaycanın yerli, regional və qlobal çağırışlara daha yaxşı cavab verməsidir. Prezident Administrasiyasının və Nazirlər Kabinetinin yeni strukturu təsdiqlənib, mərkəzi icra hakimiyyəti orqanlarında struktur islahatları aparılır, yerli icra hakimiyyəti qurumları qarşısında yeni tələblər qoyulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə icraedici hakimiyyətdə aparılan islahatlar elektron hökumətin inkişafını, "One-stop-shop"dan "non-stop-shop"a keçidi, "Only one entry" prinsipini, reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçidi, yığcam, mobil və məqsədyönlü fəaliyyəti stimullaşdıracaq. Eyni zamanda, dövlət idarəetmə islahatları məcburetmədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə, məmur-sahibkar təmaslarından rəqəmsal həllərə və kölgə iqtisadiyyatından leqallaşmaya keçidi təmin edir. Dövlət idarəetmə aparatının islahatları dövlət-özəl dialoqunu



və dövlət-vətəndaş dialoqunu daha da irəli aparacaq. Bu çərçivədə dövlət müəssisələrində və özəl sektorda idarəetmə islahatları, o cümlədən korporativ standartların tətbiqi üçün yeni imkanlar yaranıb", - deyə V.Qasımlı bildirib.

O deyib ki, məhkəmə hakimiyyətində aparılan islahatlar isə özündə elektron məhkəmənin inkişafını, ədalət mühakiməsinin keyfiyyətinin və məhkəmələrin fəaliyyətində şəffaflığın artırılmasını, məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsini, humanistləşdirmə və dekriminallaşdırmanı, vəkillik institutunun inkişafını, məhkəmənin maddi-texniki bazasının gücləndirilməsini, məhkəmə ekspertizası işinin daha da təkmilləşdirilməsini ehtiva edir. Hakimiyyətin icra və məhkəmə qanadlarında islahatlar qanunverici orqanın islahatları ilə davam edir. Növbədənkənar seçkilər nəticəsində yeni parlament islahatlar kursuna daha sistemli dəstək olacaq, dövlət idarəetməsində ictimai nəzarəti və vətəndaş iştirakçılığını daha da gücləndirəcək. Burada həm yeni deputatlar korpusunun formalaşdırılması, həm də institusional təkmilləşdirmələr üçün imkanlar yaranıb. Yeni parlamentin məhz dövlət idarəetmə islahatları çərçivəsində formalaşması qanunverici hakimiyyətin məsuliyyətini daha da artıracaq. Bələdiyyə seçkiləri isə yerli özünüidarəetmə orqanlarının yenilənməsinə dəstək olacaq".

İİTKM-in icraçı direktoru qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə effektiv dövlət idarəetmə sistemi qurulub. Azərbaycan Dünya Bankının hesabladığı "Hökumətin səmərəliliyi" subindikatoru üzrə 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib. Belə ki, müqayisə olunan dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib. Azərbaycan "Qlobal Rəqabətlilik hesabatı"nda 140 ölkənin arasında məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci, hökumətin uzunmüddətli vizyonu meyarına görə 10-cu pillədə qərarlaşıb. "ASAN xidmət", DOST, ABAD, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Şəbəkə və sair xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxındır.

"Azərbaycandan dövlət idarəetmə islahatları bundan sonra aparılacaq iqtisadi və sosial islahatların sistemliliyini və dayanıqlılığını təmin edəcək, ölkənin davamlı inkişafına zəmin olacaq. Ən əsas islahatların sistemli, rəvan və hər hansı gərginlik olmadan aparılması islahatlara inamı artırır. Azərbaycan ictimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edir. Hazırda dünyada rəqabət idarəetmə sistemləri arasında gedir. Azərbaycan məhz idarəetmənin səmərəliliyini artırmaqla qlobal səviyyədə rəqabətlilik potensialını gücləndirir", - deyə o əlavə edib.

# Allahşükür Paşazadə Naxçıvana səfər edəcək



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə dekabrın 4-də Naxçıvana səfər edəcək. İdarədən SİA-ya verilən məlumata görə, səfər zamanı QMİ sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, Şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamına uyğun olaraq tədbirlər planı çərçivəsində Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi tərəfindən keçirilən yubiley mərasimində iştirak edəcək.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dekabrın 3-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. İclasda 15 məsələyə baxılıb. Gündəlik təsdiqləndikdən sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məsələni təqdim edib. Sənəddə sığorta faizlərinə və keçid müddəalarına dair maddələrdə aparılmış dəyişiklik ətraflı şərh olunub.***



Məlumat dinlənildikdən sonra deputatlar 2020-ci il yanvarın 1-dən etibarən Azərbaycanda tətbiq olunması nəzərdə tutulan icbari tibbi sığortaya keçidin hüquqi bazasını təmin edəcək qanunu üçüncü oxunuşda qəbul ediblər.

Sonra "İcbari sığortalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" 2018-ci il 28 dekabr tarixli qanunların ləğv edilməsinə dair qanun layihəsinə baxılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, adı çəkilən qanunların ləğvi "İcbari tibbi sığorta haqqında" Qanunun qəbul edilməsi ilə əlaqədardır. Parlament müzakirəyə çıxarılmış qanun layihəsini dəstəkləyib.

İclasda Ailə Məcəlləsində dəyişiklik edilməsinə dair qanun layihəsi (üçüncü oxunuş) barədə Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlının məlumatı dinlənilib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli üçüncü oxunuşda parlamentə təqdim olunmuş Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsinə, həmçinin Mülki Məcəllədə, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsinə dair qanun layihələri barədə məlumat verib. Plenar iclasda hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Deputatlar Azərbaycan Respublikasının "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda edilən dəyişikliyi də üçüncü oxunuşda dəstəkləyiblər.

Milli Məclis "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında" Anlaşma Memorandumunu ratifikasiya edib.

Sonra parlamentə bir zərfdə daxil olmuş 4 qanun layihəsinə baxılıb. "Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında", "Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulmaq haqqında", "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentlərinə Birinci Əlavə Protokola qoşulmaq haqqında" və "Poçt ödəniş xidmətləri haqqında Sazişə və onun Yekun Protokoluna qoşulmaq barədə" qanun layihələrinin qəbul edilməsi məqsədəuyğun sayılıb.

İclasda "2009-cu il 2 oktyabr tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiqinə dair məsələni Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təqdim edib. Sənəd ratifikasiya olunub.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikasının Hərbi-Dəniz bayraqları haqqında" və "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Layihə səsə qoyulub və qəbul edilib.

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov parlamentə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunda edilən dəyişiklik (üçüncü oxunuş) barədə məlumat verib. Deputatlar qanun layihəsini dəstəkləyiblər.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli bildirib ki, Əmək Məcəlləsinin 9-cu maddəsinə və "Məşğulluq haqqında" qanunun 31-ci maddəsinə edilən dəyişiklik elektron hökumət elementlərinin hüquqi bazada təsbit olunması məqsədini daşıyır. Deputatlar bu qanun layihəsinə də üçüncü oxunuşda müsbət münasibət bildiriblər. Bununla da Milli Məclisin iclası başa çatıb.

## Memduh Unal: ECO-ya üzv dövlətlər arasında son 15 ildə iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə Azərbaycandır



İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv ölkələr arasında həm ticarət, həm də kənd təsərrüfatı sahəsində bir çox əməkdaşlıq imkanı var. Bu əməkdaşlıq məsələlərinin müzakirəsinə ehtiyac duyulur. Ona görə də İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin kənd təsərrüfatı üzrə yüksək səviyyəli ekspertlərinin V iclasına və Kənd Təsərrüfatı Nazirlərinin VI iclasına ev sahibliyi edən Azərbaycana çox təşəkkür edirik.

Bunu İqtisadi Əməkdaşlıq Təşkilatının Katibliyinin kənd təsərrüfatı və sənaye üzrə direktoru Memduh Unal dekabrın 3-də Bakıda AZƏRTAC-a məxsusi açıqlamasında bildirib. Azərbaycan rəhbərliyinin ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün uzun illərdir çox məntiqli siyasət yürütdüyünü vurğulayan Memduh Unal deyib: "Azərbaycan neftin qiymətindən asılılığın aradan qaldırılması üçün qeyri-neft sektorunun inkişaf etdirilməsinə böyük önəm verir və bu sahədə bir çox uğura nail olub. Kənd təsərrüfatı, turizm sahələri də daxil olmaqla, qeyri-neft sektoruna investisiyalar artırılıb. Bu baxımdan beynəlxalq aləmdə Azərbaycan rəhbərliyinin yürütdüyü siyasət təqdir edilir. ECO-ya üzv dövlətlər arasında son 15 ildə iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə Azərbaycandır. Bu, bizim hesabatlarımızda da öz əksini tapıb".

## Azərbaycan sərhədçiləri Xəzər dənizində səhhəti pisləşən İran və Rusiya dənizçilərinə yardım göstəriblər



Dövlət Sərhəd Xidməti (DSX) Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 1-də saat 17:50 radələrində Hövsan reydində olan İran İslam Respublikasına məxsus "Paya" quru yük gəmisinin dörd nəfər heyət üzvü - İran vətəndaşları 1976-cı il təvəllüdlü Abditazehabadi Omid Hossein, 1991-ci il təvəllüdlü Darzirekavandı Reza Soleyman, 1987-ci il təvəllüdlü Mosleh Vahid Ghafar, 1991-ci il təvəllüdlü Zarın Abkenar Alinin hərarətlərinin yüksək olması ilə əlaqədar özlərini pis hiss etmələri haqqında məlumat daxil olub. Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarəti tərəfindən limanın rəhbərliyi ilə birgə bununla əlaqədar təxirəsalınmaz tədbirlər görülüb və onlar Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasına təxliyə ediliblər.

Həmin gün saat 18:25 radələrində Dövlət Dəniz Agentliyinin Milli Mərkəzindən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə Rusiya Federasiyasının bayrağı altında üzən, Türkan reydində hərəkətdə olan "Omskiy-136" quru-yük gəmisinin heyət üzvü 1980-ci il təvəllüdlü matros Zubankov Efim Vladimiroviçin səhhətinin yüksək təzyiqlə bağlı kəskin pisləşməsi ilə əlaqədar kömək göstərilməsi barədə məlumat daxil olub. Xəstənin tibbi təxliyəsi üçün təxirəsalınmaz tədbirlər görülüb. Növbətçi sərhəd gözətçi gəmisinin qayığı tərəfindən Hövsan limanına çıxarılan E.Zubankov tibb müəssisəsinə yerləşdirilib.

## Sergey Lavrov: Rusiya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı inama və etibara əsaslanır



Dekabrın 3-də Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov görüşdən sonra birgə mətbuat konfransı keçiriblər. AZƏRTAC xəbər verir ki, nazirlər görüşdə müzakirə olunan məsələlər barədə məlumat veriblər. Elmar Məmmədyarov iki ölkə arasında bir çox sahələrdə, xüsusilə də iqtisadi sahədə uğurlu əlaqələrin olduğunu deyib. O bildirib ki, ticarət dövriyyəsinin həcmi 2,5 milyard dolları ötüb. Bu ilin sonunadək bu rəqəmi 3 milyard dollara çatdırmağı hədəfləyirik. Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Azərbaycanın Rusiyaya qoyduğu investisiya 1,2 milyard dolları keçib, Rusiya isə Azərbaycana 4,9 milyard dollar investisiya yatırıb.

Sergey Lavrov Rusiya ilə Azərbaycan arasında münasibətlərin strateji olmaqla yanaşı, qarşılıqlı inama və etibara əsaslandığını bildirib. O, dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin əhəmiyyətini qeyd edib.

Humanitar sahədə əlaqələrə toxunan Sergey Lavrov qeyd edib ki, iki ölkə arasında mədəniyyət sahəsində yaxın əməkdaşlıq var. Nazir Azərbaycanda rus dilinin tədrisinə göstərilən qayğıya görə təşəkkür edib. Bildirib ki, ali təhsil müəssisələri arasında da sıx əməkdaşlıq mövcuddur, Azərbaycanda Rusiya universitetlərinin filialları fəaliyyət göstərir.

Sergey Lavrov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya səfərini xatırladaraq vurğulayıb ki, bu səfər çox səmərəli olub.

Nazir beynəlxalq təşkilatlar səviyyəsində Rusiya-Azərbaycan əməkdaşlığının inkişaf etdiyini də diqqətə çatdırıb. "Biz Azərbaycanın qarşıdakı üç il ərzində Qoşulmama Hərəkatına sədrliyindən istifadə edərək Rusiyanın bu təşkilatla əlaqələrinin daha da yaxınlaşmasına çalışacağıq", - deyə o əlavə edib. Turizm sahəsində əlaqələrə toxunan rusiyalı nazir bildirib ki, bu istiqamətdə uğurlu əməkdaşlıq var. Bu il Rusiyadan Azərbaycana gələn turistlərin sayının bir milyona yaxınlaşdığını qeyd edən Sergey Lavrov bunun yaxşı göstərici olduğunu qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir bildirib ki, Rusiya həmsədr qismində münaqişənin həllinə kömək göstərəcək. O, Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərlərinin də önəmli olduğunu deyib. Rusiya XİN rəhbəri, həmçinin qeyd edib ki, hərbi-texniki sahədə əməkdaşlıq Moskva ilə Bakı arasında strateji tərəfdaşlığın ən vacib sahələrindəndir. Bu əməkdaşlıq beynəlxalq qanunvericiliyə uyğun inkişaf edir.

## Valentina Antonenko: "Azərbaycanda bir gündə 650 min ağacın əkilməsi ekoloji sistemin bərpasına öz ciddi töhfəsini verəcək"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda bir gündə 650 min ağacın əkilməsi ekoloji sistemin bərpasına öz ciddi töhfəsini verəcək. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukraynanın İrpen şəhərindəki Akademik Zərifə Əliyeva adına orta məktəbin direktoru Valentina Antonenko söyləyib.

"650 min ağacın əkilməsi nəticəsində planetimizdə ekoloji vəziyyət əhəmiyyətli dərəcədə yaxşılaşa bilər və bunun nəticəsi uzun müddət hiss olunacaq. Bu ekoloji aksiya digər ölkələr üçün də örnək olmalıdır. Mehriban xanım Əliyevanın bu nəcib təşəbbüsünü ürəkdən dəstəkləyirik. Onun çoxsaxəli və səmərəli fəaliyyəti digər ölkələr üçün parlaq nümunədir", - deyə V.Antonenko əlavə edib. Xatırladaq ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bir gün ərzində 650 min ağac əkiləcək. Bu təşəbbüs dahi şairin irsini təbliğ etməklə yanaşı, həm də insanları, xüsusən gənc nəsli ətraf mühiti qorumaq, ekoloji problemlərin həlli üçün səyləri birləşdirmək barədə çağırışdır.

# Xalq uğurlu struktur islahatlarını dəstəkləyir!

*Qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik fəaliyyətində də islahatların dərinləşməsi və parlamentin yeniləşməsini zərurətə çevirib*



***Məlumdur ki, ölkəmizin idarəetmə sistemində həyata keçirilən struktur islahatlarının aparılmasında əsas məqsəd Azərbaycanın dayanıqlı iqtisadi və sosial inkişafını təmin etməkdir. Kifayət qədər bəllidir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində, bilavasitə Azərbaycan vətəndaşlarının maraqları dayanır. Söz yox ki, Azərbaycan xalqı bunu görür və yüksək qiymətləndirir.***

O da bəllidir ki, Azərbaycan Respublikasının Milli Məclisi Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı müraciətini müzakirə edib və burada göstərilən mühüm məqamlardan biri də, Prezident İlham Əliyevin ölkəmizdə apardığı uğurlu islahatlardır ki, YAP həmin islahatların parlamentdə də reallaşdırılması təşəbbüsü ilə çıxış edib. Daha dəqiq desək, hazırda Prezident Administrasiyası, Nazirlər Kabineti, idarəetmə orqanları, ümumiyyətlə, dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatların cəmiyyət tərəfindən də rəğbətlə qarşılanması xalqın dövlətinin yanında olması faktını sübuta yetirir. Belə ki, xalq bu islahatları, eləcə də, irəli sürülən təşəbbüsləri daha da yeniləşməyə, tərəqqi etməyə doğru atılan addım olaraq qiymətləndirir. Məhz bu baxımdan, qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik fəaliyyətində də islahatların dərinləşməsi, parlamentin yeniləşməsini zərurətə çevirib.

**<u>Prezidentə müraciətdən:</u> "Milli Məclis ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi, dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədi ilə dövlətçilik nümunəsi göstərməlidir"**

Artıq YAP-ın rəhbər strukturları tərəfindən də qeyd olunur ki, parlamentin buraxılması və erkən seçkilərin keçirilməsi zərurətinin yaranması islahatların tərkib hissəsi olaraq yer alacaq, həmçinin, Milli Məclisdə yeni simalar, yeni potensiallı insanlar yer alacaqlar. Əbəs deyil ki, aparılan müzakirələrdən sonra Milli Məclis parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin olunması haqqında Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul edib və həmin müraciətdə qeyd olunur ki, Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və struktur islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır. "Bu islahatların daha da sürətləndirilməsi, bütün dövlət hakimiyyəti qollarını əhatə etməsi üçün Milli Məclisin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur. Milli Məclis ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi, dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədi ilə dövlətçilik nümunəsi göstərməlidir" deyə qeyd olunub.

**<u>Prezident İlham Əliyev:</u> "Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq - bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi"**

Yeri gəlmişkən, ölkəmizin başçısının CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən gerçəkləşdirilən islahatlarla bağlı irəli sürdüyü fikirlərində də bir sıra önəmli məqamlar vardır. Cənab İlham Əliyevin "Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi" ilə bağlı tədbirlər, şəffaflıq - bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi", fikri həm də belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, islahatların dinamik xarakter alması prosesi davamlı olacaq. Beynəlxalq təcrübəsi də göstərir ki, uğurlu islahatlar dövlət və hökumət başçılarının buna siyasi iradə nümayiş etdirdiyi, eyni zamanda, xalq tərəfindən dəstəkləndiyi ölkələrdə mümkündür. Məhz bu baxımdan da, yanaşma edərsək, əminliklə vurğulaya bilərik ki, Azərbaycanda möhkəm dayaqlara əsaslanan xalq-iqtidar birliyi həyata keçirilən islahatların uğurlu nəticələrinə stimul verir.

**İslahatlara alternativ yoxdur!**

Digər tərəfdən, Prezident İlham Əliyev öz çıxış və nitqlərində dəfələrlə bildirib ki, ölkəmizdə sosial-iqtisadi islahatların qarşısını heç bir qüvvə ala bilməz. İslahatlar bundan sonra da qətiyyətlə davam etdiriləcək. Çünki Azərbaycan dövlətinin siyasətinin mərkəzində, ilk növbədə, Azərbaycan vətəndaşlarının maraqları dayanır!

Daha bir nüans budur ki, ölkəmizdə keçirilən ötənilki prezident seçkilərindən sonra Cənab İlham Əliyev qeyd etmişdi ki, bütün əsas istiqamətlər üzrə mühüm hədəflər müəyyən edilib və bu hədəflər ölkə iqtisadiyyatını şaxələndirmək, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək, son nəticədə, xalqımızın maddi rifahını daha da yaxşılaşdırmaqdır. O cümlədən, ölkədə gəncləşdirmə siyasətinin aparılması ilə bu hədəflərə çatmaq üçün ciddi struktur və kadr islahatlarının da aparılması zərurəti yaranıb. Artıq Azərbaycanda bu istiqamətdə artıq ciddi uğurlu dəyişikliklər baş verir, ölkəmizdə yüksək savada, biliyə sahib olan, istedadlı, kreativ gənc kadrlar yüksək vəzifələrə irəli çəkilirlər. Bu haqda danışarkən Prezident İlham Əliyev deyib: "Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".

Beləliklə, fakt budur ki, dövlətimizin başçısı biznes mühitini təkmilləşdirmək, davamlı iqtisadi inkişafa nail olmaq, infrastrukturu və insan kapitalını inkişaf etdirmək, Azərbaycanın dünyadakı mövqelərini daha da gücləndirmək və struktur islahatları aparmaqla, ölkənin tarazlı inkişafını təmin etmək məqsədini önə sürüb. Bütün bunlar isə, bilavasitə qüdrətli Azərbaycan dövlətinin və xalqının daha da güclənməsinə doğru atılan əhəmiyyətli addımlardır.

*Rövşən NURƏDDİNOĞLU*

## Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçiriləcək ekoloji aksiya sağlam gələcək naminə atılan növbəti uğurlu addım olacaq



Ağaclar, meşələr, yaşıllıqlar insan sağlamlığının keşikçisidir. Ağaclar atmosfer havasını oksigenlə zənginləşdirməklə yanaşı, bəzisi öz meyvəsi, çiçəyi, yarpağı, qabığı ilə xəstəliklərə məlhəm olur. Çox təəssüf ki, bəzən insanlar ağacların onların həyatı, sağlamlığı üçün nə qədər faydalı olduğunu unudur, yaşıllıqları məhv etməkdən çəkinmirlər. Atmosfer havasının çirkliliyinin insan sağlamlığına mənfi təsir etdiyini, ağacların havanı necə təmizlədiyini düşünmürlər. Dekabrın 6-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə əkiləcək 650 min ağac həm İmadəddin Nəsimin 650 illiyinə ithaf olunmuş nəcib bir addım, həm də insanları ağac əkməyə, yaşıllıqları qorumağa təşviq edən bir mesaj olacaq.

Bu barədə Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru, həkim-terapevt Avtandil Verdiyev AZƏRTAC-a müsahibəsində deyib. "Ümid edirəm ki, əkiləcək tinglər ölkəmizdə gözoxşayan yaşıllıqlar, meşələr əmələ gətirəcək. İnsanlar ağacları kəsmək yerinə, onları qorumağa üstünlük verəcəklər. Aksiya sağlam gələcək naminə atılan növbəti uğurlu addım olacaq", - deyə A.Verdiyev qeyd edib.

## AzerTelecom Baku Tel sərgisində Azerbaijan Digital Hub proqramını təqdim edir



Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkəti dekabrın 3-6 tarixlərində Bakıda keçirilən Baku Tel 2019 - 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi istiqamətində icra etdiyi "Azerbaijan Digital Hub" proqramını təqdim edir.



AzerTelecom şirkətinin Baş direktoru Fuad Allahverdiyevin sözlərinə əsasən, sərgidə proqramın icra mərhələləri çərçivəsində həyata keçirilən layihələr barədə sərginin yerli və xarici iştirakçılarına ətraflı məlumat verilir. "AzerTelecom 2018-ci ildən başlayaraq Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramının icrasına başlayıb. Proqram 3 mərhələdən ibarət olmaqla, magistral infrastruktur quruculuğunu, Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsini, Azərbaycanda iri Data mərkəzin tikilməsini və ümumilikdə rəqəmsal ekosistemin qurulmasını nəzərdə tutur. Biz hazırda "Digital Hub" proqramı çərçivəsində ilkin infrastruktur quruculuğu mərhələsindəyik və həm ölkə daxilində, həm də ölkə xaricində iri infrastruktur quruculuğu layihələri icra edirik. Ölkə xaricində magistral infrastruktur quruculuğu Azərbaycan və Orta Asiya ölkələri arasında Xəzər dənizinin dibi ilə yüksək məlumat ötürmə imkanlarına malik magistral kabel xəttinin çəkilməsini nəzərdə tutur. İki istiqamətdən - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutlarından ibarət olan layihə Azərbaycandan keçməklə Avropa ilə Asiya arasında Rəqəmsal İpək Yolunu formalaşdıracaq. Şirkətimizin iştirakı ilə bu yaxınlarda dövlət-özəl sektor Konsorsiumu da təsis edilib və biz Konsorsiumun Azərbaycanın regionda rəqəmsal qovşaq olaraq mövqeyinin daha da güclənməsi, rəqəmsal texnologiyaların müxtəlif sahələrdə tətbiqinin daha da genişlənməsinə töhfə verməsi istiqamətində fəaliyyət göstəririk" - deyə Fuad Allahverdiyev bildirib.

Qeyd edək ki, sərgidə həmçinin "Azerbaijan Digital Hub" proqramının logosu da təqdim olunub.

"AzerTelecom" - Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

# Seçki qərarı müxalifəti bitirəcək

***Yeni Azərbaycan Partiyasının ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların davamı olaraq, parlamentə növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü ilə çıxış etməsi və bu təşəbbüsündə Milli Məclis üzvləri tərəfindən dəstəklənməsi ümumxalq maraqlarının ifadəçisi kimi qəbul edilir. Müxalifət isə yenə də ənənəvi ampluasından çıxış edib və seçkilərlə bağlı böhtan xarakterli açıqlamalar səsləndirir. Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin sifariş əsasında hay-küy qaldırdığını bildirib.***

## YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov: **"İslahatlar xalqın maraqlarına tam cavab verir"**



- Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının təklifi ilə növbədənkənar parlament seçkilərinin keçirilməsi Azərbaycanın qanunvericiliyinin tələblərinə tam uyğundur. Dekabrın 2-də Milli Məclis Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı müraciətini müzakirə edib. Müzakirələrdən sonra Milli Məclis parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin olunması haqqında Azərbaycan Prezidentinə müraciət qəbul edib. Bu qərarın verilməsi müsbət bir haldır. Qanunvericilik orqanında belə islahatların həyata keçirilməsi təbiidir. Çünki 2018-ci ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və idarəetmə strukturlarında yeni islahatlar həyata keçirilir. Bu islahatlar xalqın maraq və mənafeyinə tam cavab verir. Xalq Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüsləri, ideya və təklifləri hər zaman dəstəkləyib. Bu insanların xalqın partiyasının ideoloji-siyasi xəttinə inamı ilə bağlıdır. Bu cəmiyyətin Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin çox böyük uğurla davam etdirdiyi yolu dəstəkləməsindən irəli gəlir. Xalqdan güc alan Yeni Azərbaycan Partiyası hüquqi-demokratik prinsiplərə öz sədaqətini nümayiş etdirib. 1993-cü ildən bu günə qədər ölkəmizdə keçirilən bütün seçkilərdə YAP-ın xalqın dəstəyini qazanaraq qələbəsini təmin etməsi deyilənlərə misal ola bilər. Bütün seçkilərə konkret proqramla qatılan YAP qarşıya qoyduğu məqsədləri açıqlayır, ölkə ictimaiyyətini bu vəzifələri uğurla həyata keçirmək üçün birliyə və həmrəyliyə çağırır. Söz yox ki, növbədənkənar parlament seçkilərində də, YAP ənənəsinə uyğun olaraq, konkret proqramla gedəcək. Həm də, Azərbaycanın daha da güclənməsinə, inkişaf etməsinə ciddi səylər göstərən YAP seçkilərdə böyük fəallıq nümayiş etdirməklə yanaşı, seçki marafonuna qatıldığı şüarla bir daha tutduğu yola və xəttə sadiq olduğunu nümayiş etdirir. Seçkilərdə qazandığı uğurlar YAP-ın qələbələr partiyası olduğunu təsdiqləyir. Söz yox ki, növbədənkənar parlament seçkilərində də, YAP ənənəsinə uyğun olaraq, konkret proqramla gedəcək. Bu baxımdan, əminliklə deyə bilərəm ki, hər zaman olduğu kimi, qədirbilən Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının Proqramına, onun irəli sürdüyü namizədlərə öz dəstəyini göstərəcək. Müxalifət düşərgəsini təmsil edən şəxslərin parlamentin buraxılması barədə qərara qeyri-adekvat münasibət bildirmələri onların milli maraqlardan uzaq düşdüklərini göstərir. Eyni zamanda, hay-küyləri ilə müəyyən sifarişlər aldıqlarını göstərirlər. Onlar hər bir şeyə qara yaxmaq, özlərinin dayaz düşüncələrindən münasibət sərgiləməyə adət ediblər. Ancaq onların bu cür şər-böhtan xarakterli fikirlər səsləndirmələrinin heç bir əsası yoxdur. Xalq ağı qaradan ayırmağı bacarır və nəyin pis, nəyin daha yaxşı olduğunu bilir. Bu baxımdan, müxalifətin nə deməsinin cəmiyyət və xalq üçün heç bir əhəmiyyəti yoxdur. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə öz inkişafını, quruculuq və abadlıq işlərini, demokratik və hüquqi islahatlarını davam etdirir.

## Fazil Mustafa: **"Müxalifətin radikal hissəsi həmişə böhtanlarla məşğul olub və olur"**

- Müxalifətin radikal hissəsi həmişə böhtanlarla məşğul olub və olur. Hər zaman olduğu kimi, indi də parlamentin fəaliyyətinə qara yaxırlar. Bu gün, parlamentin buraxılması ilə bağlı normal, adi bir demokratik proses gedir, onu qaralamaq üçün müxalifətin radi-



kal qanadı qeyri-ciddi fikirlər səsləndirir, açıqlamalar verirlər. Radikal müxalifət bu cür hərəkətlərə əl atmaqla, yenə də yanlış yolu davam etdirdiklərini nümayiş etdirirlər. Çünki hər şey konstitusiyada hüquq çərçivəsində həll olunanda belə, yenə də sözügedən müxalifət etirazlarını bildirirdi. Əlbəttə ki, onların bu cür hərəkətləri də tamamilə yanlışdır və hər şeyə etiraz eləmək elə müxalifətlik demək deyil. Yəni sözügedən qüvvələrin bu cür etirazları qərəzdən və açıq- aşkar demək bu proseslərə əngəl olmaqdan başqa bir şey deyil.

## "Yurddaş" partiyasının sədri Mais Səfərli: **"İslahatlar hakimiyyətin bütün qanadlarını əhatə edir"**

- Bu gün ölkədə Cənab Prezident çox böyük islahatlara start verib. Bu islahatların artıq iqtisadi səmərəsini, faydasını cəmiyyətin hər bir üzvi görməkdə, hiss etməkdədir və bu islahatlar davam edir. Bu islahatlar hakimiyyətin bütün qanadlarını əhatə edir və o cümlədən də, qanunvericilik hakimiyyəti olan Milli Məclisin fəaliyyətini də özündə ehtiva edir. Ona görə də,



burda qeyri-adi heç nə yoxdur. Eyni zamanda, Azərbaycanın Konstitusiyasında və qanunlarımızda bu kimi məsələlər öz əksinin tapıb. Yəni müxalifətin burda hay-küy salmağının heç bir əsası yoxdur. Müxalifət liderlərinin də çıxışlarına baxıram və onlar ciddi bir arqument də gətirə bilmirlər ki, niyə görə buna etiraz edirlər. Əgər bu, konstitusiyaya və qanunlara uyğundursa, bunun nəyinə etiraz edirlər? Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən bu qüvvələrin hərəkətləri gözlənilən idi. Çünki onlar hər zaman bu cür anormal hərəkətlərə əl atıblar. Demək olar ki, sosial bazası olmayan və ictimai dəstəkdən məhrum olan qüvvələr hər zaman belə bir yanlış mövqedən çıxış edirlər. Əgər doğrudan da, cəmiyyət tərəfindən dəstəkləri varsa, onlar bu seçkilərə qatılmalıdırlar. Əgər bunlar seçkilərdə iştirak etmirlərsə, seçkiləri yox, özlərini boykot edirlər. Bir sözlə, müxalifət düşərgəsini təmsil edən bu şəxslərin nə demələrindən asılı olmayaraq, normal parlament seçkiləri keçiriləcəkdir.

## TOHGMİB-nın sədri Emin Həsənli: **"Növbəti seçkilər də müxalifət üçün uğursuz olacaq"**

- Müxalifət tükənib və xalq dəstəyindən tamamilə məhrum olub. Bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi və idarəetmə sahəsində islahatlar aparılır. Yeni Azərbaycan Partiyası, islahatların davamı olaraq, parlamentə növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü ilə çıxış edib və artıq Milli Məclis bu təşəbbüsü dəstəkləyən qərar qəbul edib. Əminliklə demək olar ki, YAP çox demokratik bir qərar qəbul edib, tam hüquqi bir qərardır. Müxalifət düşərgəsini



təmsil edən şəxslərin dedikləri boş söhbətdir. Ümumiyyətlə, partiyanın işi həmişə seçkiyə hazır olmaqdır, siyasi partiyanın ayrı nə işi var ki? Siyasi partiyalar istənilən seçkinin bitən günün səhərisi, digər seçkiyə hazırlaşmalıdır. Amma müxalifət təmsilçiləri çox gözəl bilirlər ki, onların sosial bazaları yoxdur. Ona görə də, anormal çıxışlar edirlər. Bu cür hərəkətlərinin də heç bir əsası yoxdur. Müxalifət bu günə qədər ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəlib və bundan sonra da, nə isə bir uğur qazanmaq şansları sıfıra bərabərdir. Növbəti seçkilər də müxalifət üçün uğursuz olacaq.

***GÜLYANƏ***

# Ekspert: Prezident İlham Əliyevin yürütdüyü siyasətin bütün konturları göz önündədir

***Bütün dünyada olduğu kimi, Azərbaycanda da xalqın hakimiyyətə olan etimadını və dəstəyini şərtləndirən bir sıra mühüm amillər var. Bunlardan birincisi sosial siyasətlə bağlıdır ki, təkcə 2018-2019-cu illər ərzində bu istiqamətdə həyata keçirilən və konseptual əsasları olan tədbirlər, davamlı xarakter daşıyan bu prosesdə şəhid ailələri, müharibə veteranları, əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər, tələbələr, təqaüdçülər də daxil olmaqla, bütün sosial qrupların nəzərə alınması vətəndaş məmnunluğunu təmin edən əsas amillərdəndir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

O qeyd edib ki, digər mühüm amil sabitlik və təhlükəsizliklə bağlıdır. Bu sahədə də Prezident İlham Əliyevin yürütdüyü siy0asətin bütün konturları göz önündədir.

"Dövlətimizin başçısının ölkənin xarici siyasətinin vektorlarını dəqiq müəyyənləşdirməsi, regional, subregional və qlobal dəyişikliklərə münasibətdə nümayiş etdirdiyi çevik reaksiya, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsi istiqamətində həyata keçirdiyi çoxşaxəli tədbirlər, Azərbaycanı qlobal problemlərin müzakirə edildiyi, müxtəlif geosiyasi qütblərin bir araya gələ bildiyi dialoq məkanına çevirmək bacarığı, reallaşdırılmış və reallaşdırılmaqda olan enerji və nəqliyyat dəhlizləri layihələri vasitəsilə təhlükəsizliyimizə təhdid yarada biləcək amillərin qarşısının alınması, ölkədaxili proseslərə xarici müdaxilələrin qarşısının alınması istiqamətində həyata keçirilən qabaqlayıcı tədbirlər, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının və döyüş qabiliyyətinin artırılması bu sahədə də vətəndaşlarımızın tam etimadını təmin edib", - deyə siyasi ekspert bildirib. Onun sözlərinə görə, Azərbaycan vətəndaşı və ölkəmizə gələn istənilən şəxs burada özünü təhlükəsiz hiss edir ki, bu da müasir dünyada ən mühüm amillərdən hesab olunur.

E.Mirzəbəyli əlavə edib ki, başqa bir mühüm istiqamət səhiyyənin, təhsilin əlçatanlığı ilə bağlıdır. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər, təhsil sahəsində aparılan islahatlar bu istiqamətlərdə də vətəndaş məmnunluğunun təmin edilməsinə zəmin yaradıb.

Respublikamızda məşğulluğun təmin edilməsi üçün reallaşdırılan çoxşaxəli və ölkə həyatının bütün sahələrini əhatə edən proqramları xüsusi qeyd etmək lazımdır. Ekspert qeyd edib ki, qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar, vergi islahatları və bütün bu fəaliyyətlərin uzunmüddətli yol xəritələri əsasında həyata keçirilməsi bu sahədə də ciddi, inqilabi irəliləyişlərin baş verəcəyini söyləməyə əsas verir.

Elçin Mirzəbəyli, həmçinin bildirib ki, ölkəmizdə insan hüquqlarının qorunması, söz, fikir azadlığının, plüralizmin təmin edilməsi sahəsində də genişmiqyaslı tədbirlər görülür. Cəza siyasətinin humanistləşdirilməsi istiqamətində istər dövlətin, istərsə də məhkəmə qərarlarının icrası müstəvisində görülən işlər, məhkəmə-hüquq sistemində aparılan və aparılması nəzərdə tutulan islahatlar ölkəmizdə qanunun aliliyinə maneə yarada biləcək bütün amillərin qarşısının alınması üçün ciddi siyasi iradənin olduğunu təsdiqləyən başlıca amildir. Bununla yanaşı, ölkəmizdə aparılan kadr və struktur islahatlarını da xüsusi qeyd etmək lazımdır.

"Təsadüfi deyil ki, Sosial Tədqiqatlar Mərkəzinin sonuncu sorğusunda vətəndaşların 77,5 faizi ölkə Prezidentinə inam və etimadının daha da artdığını bildirib. Sorğuda iştirak edən respondentlərin 87,6 faizinin Prezidentin həyata keçirdiyi islahatları dəstəkləməsi, onu əhəmiyyətli hesab etməsi gözləntilərin, inamın və etimadın bariz göstəricidir", - deyə ekspert vurğulayıb.

O bildirib ki, sadalanan bütün bu və digər amillər Azərbaycan Prezidentinə, dövlətimizə olan inam və etimadı şərtləndirən əsas amillərdir.

# Xarici və ölkə mediasının nümayəndələri Naxçıvanda olublar



***Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının və Azərbaycan Mətbuat Şurasının nümayəndələri Naxçıvan Muxtar Respublikasında səfərdə olublar. Qonaqlar səfərləri çərçivəsində media mərkəzlərində, tarixi memarlıq abidələrində, ali təhsil ocaqlarında olub, beynəlxalq konfransda iştirak ediblər. Konfrans çərçivəsində Naxçıvan mətbuat şurası Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv seçilib.***

Əvvəlcə qonaqlar ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanındakı abidəsinin önünə gül dəstəsi qoyub, öz ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, muzeydə Ulu öndərin həyat və fəaliyyətini əks etdirən dəyərli eksponatlar sərgilənir. Qonaqlar ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti ilə xüsusi maraqlanıblar. Bildirilib ki, muzeyin kitabxanasında 538 adda 1100-dən çox ədəbiyyat nümayiş etdirilir.

Ulu öndər Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi vaxtlara aid eksponatlar diqqəti cəlb edib. Ali Məclisin mətbuat xidmətinin həmin dövrə aid məlumatları, "Şərq qapısı" qəzetinin nüsxələri də muzeydə qorunub saxlanılır. Muzeydə ümummilli liderin ictimai-siyasi fəaliyyəti, xarici dövlət başçıları ilə çəkilmiş fotoları, xatirə əşyaları, jurnalistlərlə görüşlərini əks etdirən fotolar və digər eksponatlar maraq doğurub.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri Melek Sule Aker, Assosiasiyanın üzvləri nigeriyalı media eksperti Nick Nvolisa, Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının ictimaiyyətlə əlaqələr mərkəzinin rəhbəri Nurhan Günsev, "İki sahil" qəzetinin baş redaktoru, Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü Vüqar Rəhimzadə, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu muzeyin xatirə kitabına ürək sözlərini yazıblar.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin rəsmi tədbirlər zalında "Onlayn media və sosial şəbəkələr: Yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb. Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Ülvi Hüseynli qeyd edib ki, bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə edib.

Bildirilib ki, bir əsrə yaxın tarixi olan Naxçıvan mətbuatı bu gün əsl inkişaf dövrünü yaşayır. Bu bir reallıqdır ki, muxtar respublika mediası ən müasir avadanlıqlarla təmin olunub. Universitet televiziyası və radiosu da daxil olmaqla 3 televiziya, 3 radio, 9 qəzet, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi fəaliyyət göstərir. Diqqətə çatdırılıb ki, son illərdə media qurumlarının saytları yenilənib, onlar geniş oxucu və izləyici kütləsi qazanıblar.

Bu gün muxtar respublika barədə ölkə mətbuatı ilə yanaşı, eyni zamanda Türkiyə, Rusiya, Amerika Birləşmiş Ştatları, Çili, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, İspaniya, Pakistan, Yaponiya, Malayziya və digər ölkələrin kütləvi informasiya vasitələrində, sosial şəbəkə hesablarında məqalələr verilir, fotoşəkillər və videolar paylaşılır.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov şuranın fəaliyyəti barədə ətraflı məlumat verib, sosial şəbəkələrin və onlayn medianın əhəmiyyətini diqqətə çatdırıb. Bildirilib ki, şura daxil olan şikayətlər əsasında qeyri-dəqiq və qərəzli informasiyaların yayılması barədə araşdırmalar aparır, bu cür xoşagəlməz hallara qarşı mübarizədə fəal iştirak edir.

Əflatun Amaşov Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı qeyd edib ki, yeni memorondumun imzalanması ölkəmizin media mühitində əlamətdar hadisədir. Bu, həm də Naxçıvan mediasının müasir durumunu əks etdirməklə yanaşı onun beynəlxalq müstəviyə çıxarılma səviyyəsini də təsdiqləyir. Əflatun Amaşov həmçinin gənc tələbə-jurnalist kadrların Naxçıvan teleradiosunda və "Şərq qapısı" qəzetində təcrübə kurslarına cəlb edildikdən sonra işə götürülmələrini də mütərəqqi addım sayıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə əsası qoyulan hamilik təcrübəsinin ölkəmizin digər universitet və dövlət oqanları, eləcə də media qurumları arasında tətbiqi günün tələbinə çevrilib. Bu, Naxçıvanda gənc jurnalistlərin yenişməsində müstəsna rol oynayır.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri Melek Sule Aker assosiasiyanın fəaliyyət istiqamətləri barədə məlumat verərək qeyd edib ki, təşkilata 21 mətbuat şurası üzvdür. Biz çox sevinirik ki, Naxçıvan Mətbuat Şurası da assosiasiyaya üzv seçilir. Bunun nəticəsində ikitərəfli münasibətlər daha da genişlənəcək, beynəlxalq tədbirlərdə Naxçıvan mətbuatı da təmsil olunacaq. Melek Sule Aker mövzunun aktuallığını diqqətə çatdıraraq qeyd edib ki, sosial şəbəkələr və sosial media ictimai fikri formalaşdırır. Bu gün ən önəmli problemlərdən biri medianın tənzimlənəməsi və müəllif hüquqlarının pozulmasıdır. Bu problemin aradan qaldırılması üçün tənzimləyici hüquqi bazasının formalaşması bütün dünyada öndə duran məsələlərdəndir.

Əflatun Amaşov və Sule Aker göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə öz minnətdarlıqlarını ifadə ediblər. Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvü, Nigeriyadan olan beynəlxalq media eksperti Nick Nvolisa Nigeriyada və Orta Afrikada sosial medianın tənzimlənməsi və bu sahədə olan problemlər barədə məlumat verib.

Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli vurğulayıb ki, muxtar respublikanın informasiya blokadası tam yarılıb. Naxçıvan televiziyası və radiosu dünyaya açılıb və hər bir nöqtədə izlənilir. Bu gün muxtar respublikanın mətbuat orqanlarının, "Nuhçıxan" İnformasiya Agentliyinin saytları və sosial şəbəkə hesabları dünyanın 140 ölkəsindən izlənilir və oxunur. İngilis və rus dillərində əhəmiyyətli xəbər və məqalələr hazırlanaraq yayılır. Bu da müstəqillik illərində əldə olunan ən böyük uğurlardan biridir. Sahil Tahirli deyib ki, Naxçıvan mediası sürətlə gəncləşir, gənc jurnalistlər onlayn media üzərindən Naxçıvan həqiqətlərinin yayılmasında yaxından iştirak edirlər. Təkcə son 5 ildə Naxçıvan Dövlət Universitetinin jurnalistika ixtisası üzrə bitirən 20 nəfər gənc Naxçıvan teleradiosunda işlə təmin edilib.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova bildirib ki, media qurumlarının sosial şəbəkələrdəki çoxminlik səhifələrinin yaradılması muxtar respublika barədə operativ, dəqiq və qərəssiz informasiyaların yayılmasını təmin edir.

Tədbirdə Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu, Mətbuat Şurasının İdarə Heyətinin üzvləri çıxış edərək mövzunun aktuallığı və Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv seçilməsi barədə fikirlərini bölüşüblər.

Konfransın sonunda Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı ikitərəfli memorondum imzalanıb.

Qeyd edək ki, Naxçıvana gələn xarici və ölkə mediasının nümayəndələri Naxçıvan Muxtar Respublikasının mədəniyyət müəssisələri, media mərkəzləri, tarixi abdiələri və gəzməli-görməli yerləri ilə tanış olublar. Qonaqlar Naxçıvan Dövlət Universitetində yaradılan şəraitlə tanış olublar. İnformasiya Kommunikasiya Texnologiyaları və Elektron Təhsil Şöbəsində məlumat verilib ki, universitet ərazisində elektron imtahanların keçirilməsi mərkəzi burada yerləşir. Ali təhsil ocağının sosial şəbəkə hesabları, saytı, elektron sənəd dövriyyəsi buradan idarə olunur.

Universitetin media mərkəzi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, mərkəzin maddi texniki bazası möhkəmlənib, bütün lazımi avadanlıqlar, ötürücülər istifadəyə verilib. Tələbələrin iştirakı ilə burada verilişlər, xəbər, videoçarx və sənədli filmlər hazırlanaraq təqdim olunur. Qonaqlar universitet televiziyasında veriliş apanıblar.

Jurnalistika ixtisasında təhsil alan tələbələrlə görüşdə çıxış edənlər ictimai fikrin formalaşmasında jurnalistikanın rolundan, müasir dövrdə onlayn medianın fəaliyyət istiqamətlərindən söhbət açıblar. Bildirilib ki, jurnalist hər şeydən öncə savadlı və bilikli olmalı, araşdırma aparmağı bacarmalıdır. Tələbələrin suallarına da aydınlıq gətirilib, onlara jurnalistin praktik yaradıcılığı mövzusunda mühazirə oxunub, jurnalistika nəzəriyyəsinə aid kitablar tələbələrə hədiyyə edilib. Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, yazıçı Rəşad Məcid özünün yeni çapdan çıxan "Qələmsiz yazılanlar" kitabını gənc jurnalistlərə bağışlayıb.

"Şərq qapısı" qəzetinin redaksiyasında olan qonaqlara məlumat verilib ki, 2010-cu ildə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks istifadəyə verilib. Burada müasir şərait yaradılıb, yeni çap avadanlıqları quraşdırılıb.

Qeyd olunub ki, 2012-ci ildən istifadəyə verilən "Şərq qapısı" qəzetinin internet saytı bu ilin sentyabr ayında yenilənib. Qonaqlar qəzetin əməkdaşları ilə söhbət edib, burada yaradılan iş şəraiti ilə daha yaxından tanış olublar. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində olan qonaqlara məlumat verilib ki, 1997-ci ildə yaradılan nəşriyyat 2010-cu ildə yeni binada yerləşdirilib və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlıqları quraşdırılıb.

Naxçıvan Dövlət Teleradiosunda olan media nümayəndələrinə redaksiyalar, videoarxiv, dublyaj və montaj prosesi, efirə hazırlıq, çəkiliş pavilyonları, studiyalar, yayım texnologiyaları barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Radiosunun avadanlıqları da tamamilə yenilənib. Müasir səsyazma və yayım studiyalarına, geniş həcmli arxiv sisteminə və digər müasir radio texnologiyalarına malik radionun səsi internet üzərindən bu gün dünyanın istənilən nöqtəsində dinlənilir.

"Nuhçıxan" İnformasiya Agentliyi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, 2018-ci ilin may ayından fəaliyyətə başlayan agentlik vasitəsilə teleradio verilişlərinin internet üzərindən yayımı təşkil edilib. Agentliyin əsas fəaliyyət istiqamətləri muxtar respublika ilə bağlı ən mühüm hadisələr haqqında informasiyaları, şərh və rəyləri, analitik məqalələri, foto və videoinformasiyaları, rəsmi materialları beynəlxalq internet şəbəkəsi və sosial şəbəkələr vasitəsilə yaymaqdır. Qonaqlar televiziyanın digər redaksiyalarının fəaliyyəti ilə də yaxından tanış olub, Televiziyanın "Nuhçıxan" xalq çalğı alətləri ansablının çıxışını izləyiblər.

Naxçıvan Dövlət Televiziyasının "Günün sözü" verilişinin qonağı olan Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri Melek Sule Aker, Assosiasiyanın üzvü Nurhan Günsev, beynəlxalq media eksperti Nick Nvolisa, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, sədr müavini Umud Rəhimoğlu, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə onlayn medianın mövcud durumu, bu sahədəki narahatedici məqamlar, sosial şəbəkələrdən istifadə ilə bağlı fikirlər səsləndiriblər.

Sonra dillər əzbəri Batabatda olan qonaqlar buranın qış mənzərəsini, xüsusən də qarlı dağlarını böyük heyranlıqla izləyib, fotolar çəkdiriblər. Əsgərlərimizlə görüşən media nümayəndələri onlarla xatirə şəkli çəkdirib, ucqar dağlıq ərazilərdə yaradılan nümunəvi xidməti yüksək qiymətləndiriblər . Duzdağ Fizioterapiya Mərkəzinə gələn qonaqlara mərkəzin fəaliyyəti haqqında geniş məlumat verilib. Bildirilib ki, insanların təbii yolla şəfa tapdığı bu səhiyyə ocağında yüksək xidmət şəraiti yaradılıb. Türkiyədən gələn pasiyentlər də burada ağciyər və yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunurlar. Media nümayəndələri gəzinti çərçivəsində həmçinin, Möminə xatın və Açıq Səma Altında Muzey Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olublar.

# Əhalinin sosial müdafiəsi daha da gücləndirilir

*Dövlət başçısının Sərəncamı ilə sosial təyinatlı obyektlərin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqla təchizatı məqsədilə dövlət büdcəsindən 20 019 100 (iyirmi milyon on doqquz min yüz) manat ayrılıb*

***Ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. İqtisadi sahədə islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Reallaşan müxtəlif tədbirlər və islahatlar sayəsində Azərbaycan iqtisadiyyatı, son 16 il ərzində üç dəfədən çox artıb ki, bu da dünya üzrə rekord göstəricidir.***



Ölkə əhalisinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin son üç ayı ərzində imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu. Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmişdi. Bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklərin başladığı kimi xarakterizə edildi. İmzalanan sərəncamlar bunun davamlığını ortaya qoymuş oldu. Dövlət başçısının 2 dekabr 2019-cu il tarixində imzaladığı "Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncamı ölkədə sosial müdafiə və tibbi-sosial reabilitasiya əhəmiyyətli müəssisələr şəbəkəsinin genişləndirilməsinə və bu sahədə müasir tələblərə uyğun infrastrukturun qurulmasına xüsusi qayğının növbəti təzahürüdür. Məlumdur ki, əhalinin sosial müdafiəyə xüsusi ehtiyac duyan təbəqələrinin rifahının yüksəldilməsi, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində son illərdə mühüm addımlar atılmış, bu qəbildən olan insanların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, ödənişsiz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunması uğurla həyata keçirilmişdir. Sərəncamda qeyd olunduğu kimi, xüsusən, bu dövrdə bərpa-müalicə şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi təmin olunmuş, sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiyası işinin gücləndirilməsi məqsədilə uşaq bərpa mərkəzləri yaradılmışdır. Sənədə əsasən, bir sıra sosial təyinatlı obyektlərin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqla təchizatı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.18.4-cü yarımbəndində göstərilən vəsaitin 20 019 100 (iyirmi milyon on doqquz min yüz) manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılıb.

Dövlət başçısının imzaladığı növbəti Sərəncamı sosial müdafiə və reabilitasiya əhəmiyyətli müəssisələrin inkişafı və şəbəkəsinin genişlənməsində mühüm addımların atılmasını təmin edəcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən qəzetimizə verilən məlumata əsasən, ötən dövrdə dövlət başçısının uğurlu sosial siyasəti əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həssas qruplardan olan vətəndaşlara dövlət qayğısının artırılması sahəsində ardıcıl şəkildə mühüm addımların atılmasını təmin edib. Bu siyasətin tərkib hissəsi kimi, yeni sosial təyinatlı obyektlər, o cümlədən, sosial xidmət və reabilitasiya məqsədli müəssisələr tikilərək istifadəyə verilib. Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün artıq 14 reabilitasiya və 15 sosial xidmət müəssisəsi vardır.

Sosial xidmət və reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun qurulması istiqamətdə mühüm işlər aparılır. Bu sahədə növbəti addımlar kimi, ötən ay Yevlax və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzləri, Mərdəkan Müalicə Pansionatı əsaslı təmir və yenidənqurmadan sonra və müasir ləvazimatlarla və avadanlıqlarla təchiz olunmaqla istifadəyə verilib. Hazırda Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran Regional Bərpa Mərkəzlərində, Şağan Əlilliyi olan şəxslər üçün Müalicə Pansionatında, Gəncə Pensiyaçılara Ərazi-Sosial Xidmət Mərkəzində, Göygöl və Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisələrində əsaslı təmir və yenidənqurma işləri davam edir. Qobustan Sosial Adaptasiya Mərkəzi və Gəncə Peşə-Tədris Mərkəzi də yaxın vaxtlarda istifadəyə veriləcək.

Azərbaycan Prezidenti İlham Əliyevin 2 dekabr 2019-cu il tarixli Sərəncamı ilə bir sıra sosial təyinatlı obyektlərin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqla təchizatı məqsədilə maliyyə vəsaitinin ayrılması bu sahədə işlərin uğurla davam etməsinə imkan yaradır. Sərəncam üç istiqaməti - tikintisi nəzərdə tutulan sosial təyinatlı obyektlərin layihələndirilməsini, onların tikintisini, sosial təyinatlı obyektlərdə əsaslı təmir və yenidənqurmanı, bu müəssisələrdə bərpa yolu ilə gücləndirməsi və avadanlıqla təchizat işlərinin aparılmasını nəzərdə tutur. Nəticə etibarilə sənəd müasir tələblərə uyğun yeni sosial xidmət və reabilitasiya müəssisələrinin istifadəyə verilməsinə, bu sahə üzrə infrastrukturun genişlənməsinə, ayrı-ayrı bölgələrdə də yeni bərpa mərkəzlərinin tikintisinə təminat verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Cari ildə Azərbaycanla Səudiyyə Ərəbistanının ticarət dövriyyəsi 10 milyon dollar olub



Yanvar-oktyabr aylarında Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ticarət dövriyyəsi 10 milyon ABŞ dolları təşkil edib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz çoxdur. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri vəzifəsini əvəz edən Yusif Abdullayev dekabrın 3-də Bakıda keçirilən "Xəzər bölgəsinin təchizat zəncirinin Səudiyyə Ərəbistanına genişlənməsi imkanları"na dair tədbirdə deyib. Y.Abdullayev qeyd edib ki, ticarət dövriyyəsinin göstəricisi yüksək olmasa da, potensial var və bu rəqəmləri artırmaq mümkündür.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Siyasət xoruzu nə qədər banlasa da, sabahı açılmır

***Vaxtilə rəhmətlik Əbülfəz Elçibəyin Əli Kərimli haqqında dediyi fikirlərini bir daha xatırlamağa dəyər: "Əli Kərimli mənim yox, millətin düşmənidir", yaxud "Bu komsomolçudan hər şeyi gözləmək olar"... Məhz bu reallıqdan çıxış edərək, xalq növbəti dəfə əmin oldu ki, AXCP sədri Ə.Kərimli iyrənc siyasət aparan və bunu özünün əsas mübarizə xətti seçən ünsür kimi tanınır.***

Çünki təxribatçı və pozucu ünsür cəmiyyət üçün təhlükə mənbəyidir. Ə.Kərimli və ətrafı, daha dəqiq desək, AXCP-"Milli Şura" cütlüyü ölkəmizdə həyata keçirilən inkişaf və tərəqqiyə qarşı sərsəm bəyanatlar səsləndirməklə, hətta növbədənkənar parlament seçkilərini öz ucuz təfəkkürləri ilə boykot edəcəkləri bəyanatlarını zorla ictimai rəyə sırımaqla, özlərini xalqın qarşısında bir daha gülünc vəziyyətə saldılar. Çünki xalq amili deyilən reallıq bu gün Azərbaycanda gedən inkişaf proseslərini görür, ölkə başçısının əzmi, qətiyyəti və iradəsi sayəsində həyata keçirdiyi nəhəng islahatları, birmənalı şəkildə, dəstəkləyir! Bu baxımdan, nə Ə.Kərimli, nə də onun yan-yörəsi özünün yarıtmaz siyasəti ilə xalqı öz mövqeyindən, necə ki, əvvəllər də döndərə bilməyib, bundan sonra da döndərə bilməz.

### Rədd olmaması qalsın bir yana, üstəlik, ara-sıra xoruzlanıb-banlamağı da unutmur

Ümumiyyətlə, tükənmiş və bitmiş birinin hələ də siyasi gündəmdə qalması da istər-istəməz təəccüb doğurur. Hətta bəzən, siyasi-ictimai hadisələrlə maraqlanan, bilgiləri olan tanış-bilişlərim də sual edirlər ki, bəs bu, nə məsələdir ki, Ə.Kərimli hələ də abır-həyasını bir küncə atmaqla, ya sosial şəbəkələrdə bloqerlik edir, ya müxtəlif çağırışlar etməklə, insanlara daxilindəki çirkabları sırımağa çalışır. Məgər o, hiss eləmirmi ki, xalq deyilən məfhumun onun adı gələndə dərhal ürəyi bulanır? Mən də qalıram çar-naçar və deyirəm ki, əgər bu fərddə, azacıq da olsa abır-həya qalsaydı, çoxdan siyasi arenanı tərk edib, rədd olardı cəmiyyətin gözü qarşısından. Amma rədd olmaması qalsın bir yana, üstəlik, ara-sıra xoruzlanıb-banlamağı da unutmur. Nə deyəsən..? Bu "adamın" həqiqi cəhətdən adamlığı olsaydı, hər halda, ölkədə gedən dolğun, məntiqli, dinamik və tərəqqi proseslərini dərk edərdi.

### Bu onların, yəni AXCP-"Mili Şura" ciftinin "dönməz mübarizə metodudur"

Yeri gəlmişkən, hazırda boykotdan-zaddan dəm vuran, bu siyasi buqələmun unutmamalıdır ki, hələ bir müddət əvvəl həbsdə olan "ReAl" partiyasının sədri İlqar Məmmədovla onun sosial şəbəkədə reytinq sorğusu keçirilmişdi və İ.Məmmədov Ə.Kərimlini kifayət qədər üstələyərək, sözün əsl mənasında, altına salmışdı. İndi Ə.Kərimli boğazını yırtayırta islahatlara, inkişafa və tərəqqiyə qarşı sarsaq bir bəyanat yayır, adını da qoyur ki, bu, onların, yəni AXCP-"Milli Şura" ciftinin "dönməz mübarizə metodudur" və s... Nə deyək, qoy bunlar öz sarsaq və axmaq qərarları ilə özlərini millətə güldürməkdə davam etdirsinlər. Hətta bu kimi nə qədər çox qərarlar, bəyanatlar səsləndirsələr, bir o qədər cəmiyyət üçün yaxşı olacaq. Çünki Ə.Kərimlinin və ətrafının siyasət meydanını daha tez tərk edib, rədd olmaq imkanları bu vasitələr ilə daha da artacaq. Ona görə də, qoy bu siyasət xoruzu ürəyi istədiyi qədər banlasın. Onsuz da, onun üçün heç vaxt sabah açılmayacaq...

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

## Biləsuvar

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsi Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verib.

"Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyasına uğurla başlayan YAP Biləsuvar rayon təşkilatının seçki qərargahı bələdiyyə seçkiləri ilə əlaqədar rayonun Ağalıkənd və Ovçubərə kəndlərində seçicilərlə görüşdə rayon təşkilatı Seçki Qərargahının üzvü Əjdər Niftiyev çıxış edərək, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial və iqtisadi islahatlardan söhbət açıb. Bildirib ki, qarşıdakı növbəti bələdiyyə seçkilərində YAP tərəfindən 219 namizəd irəli sürülüb: "Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazanıb. 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlər çoxluq təşkil edərək, seçicilər tərəfindən dəstəklənəcək".





Görüşdə çıxış edən Ağalıkənd kənd sakini Səmədulla Ağayev, Nəriman Cəfərov, Ovçubərə kənd sakinləri Əbülfət Nağıyev, İltifat Əliyev və digərləri Yeni Azəbaycan Partiyasının irəli sürdüyü namizədlərə səs verəcəklərini bildiriblər.

## Xaçmaz





YAP Xaçmaz rayon təşkilatında 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təşviqat kampaniyası davam edir.

Növbəti görüş qərargah və üzvləri ilə olub. Görüşdə rayon gigiyena və epidemiologiya mərkəzinin direktoru Bəxtiyar Haqverdiyev ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələrə münasibətini bildirərək, Prezident İlham Əliyevin daxili və xarici siyasəti, ölkədə aparılan islahatların Azərbaycan xalqının gələcək inkişafına hesablandığı barədə məlumat verib.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının qərargah üzvləri, Abasyar Heydərov, Süraye Əmirova, həkimi Saleh Pirəliyev çıxış edərək, bələdiyyə seçkiləri ilə əlaqədar məlumat verərək, hər kəsi seçki günü öz yaxınları ilə ellikIə iştirak etməyə və YAP namizədlərinə səs verməyi dəvət ediblər.

## Tərtər

Bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən namizədlikləri irəli sürülmüş bələdiyyə üzvlüyünə namizədlərlə Hacıqərvənd və Yuxarı Sarıcalı-Düyərli kənd bələdiyyələri üzrə görüş-mitinq keçirilib. Hər iki kənddə görüşdə yığıncağı YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov açaraq, bələdiyyələrin son 5 ildəki fəaliyyətlərindən, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan uğurlardan, Azərbaycan xalqının sosial-rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən siyasətin müsbət nəticələrindən və cari ildə keçiriləcək bələdiyyə seçkilərində YAP-ın nazmidələrinin şəksiz qələbə çalacaqlarına əmin olduğunu bildirib: "1993-cü ildən hakim partiya kimi fəaliyyətdə olan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın qüdrətlənməsi üçün ardıcıl siyasət yeritdiyindən, ümumxalq partiyasına çevrilmiş və bu mənada, onunla rəqabət apara biləcək ikinci bir siyasi qüvvə yoxdur".





Görüşdə YAP Tərtər rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Hacıqərvənd kəndinin sakinlərindən Rasim Əliyev, Sitarə Xəlilova, Mehman Mehdiyev, Yuxarı Sarıcalı-Düyərli kənd sakinlərindən Tahir Əliyev, Əzizə Cəfərova, Südabə Quluyeva, Tahir Əliyev və başqaları da çıxış edərək, 23 dekabrda bələdiyyə seçkilərinin şəffaf və demokratik qaydada keçirilməsi üçün görüləsi işlərdən danışıblar.

## Qusar

Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatında bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində tədbir keçirilib.

Tədbirdə təşkilatın şura üzvləri, qadınlar şurası, gənclər birliyinin üzvləri və partiyanın fəalları iştirak ediblər.

Tədbirdə YAP Siyasi Şurasının üzvü, rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası ilə əlaqədar görüləcək işlər ətrafında fikirlərini bildirib: "51 saylı Qusar seçki dairəsi üzrə 229 nəfər, 53 saylı Quba-Qusar seçki dairəsi üzrə isə 36 nəfər Yeni Azərbaycan Partiyasının namizədidir".





Tədbirdə bələdiyyəyə namizədliyi irəli sürülən namizədlər Neva Abdurahmanova və Zalikə Qayıbxanova çıxış edərək ölkəmizin daha da inkişafı, xalqımızın rifahı naminə həyata keçirilən böyük layihələrin aparıcı və təkanverici siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının onlara göstərdiyi etimadı doğruldacaqlarını bildiriblər.

## Ağdaş

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Ağdaş rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Rayonun Kükəl kəndində seçicilərlə görüş keçirilib.

Görüşü Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının aparat rəhbəri İsa Eminov açaraq bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışmışdır.





Ardı Səh. 12

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

Əvvəli Səh. 11

İ.Eminov həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azərbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qabağında baş verdiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. O, "Xalq üçün" devizi ilə təşviqat kampaniyasına uğurla başlayan YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış edib.

Görüşdə çıxış edən təbliğat qrupunun üzvü YAP Ağdaş rayon təşkilatı qadınlar şurasının sədri Tənzilə Şıxıyeva bildirib ki, Ağdaş rayonunda rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclüdür."Ağdaşlılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdirmişlər. Zəngin seçki təcrübəsinə malik olan rayonumuzda bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunubdur. Əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də rayonumuzda uğurla keçəcək, seçicilərimiz Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük dəstək olacaq və onlara səs verəcəklər.

Yeni Azərbaycan Partiyası tərəfindən Kükəl Bələdiyyəsinin üzvlüyünə namizədlikləri irəli sürülən 9 nəfər adından çıxış edən İttifaq Şərifov onlara YAP tərəfindən göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib və bu etimadı öz əməli işləri ilə doğruldacaqlarını bəyan edib.







### Biləsuvar

Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı "Xalq üçün" devizi ilə təbliğat təşviqat kampaniyasına başlayıb. Bütün seçki proseslərində olduğu kimi, bələdiyyə seçkisinə də yüksək ab-hava ilə başlayan YAP Biləsuvar rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar, seçki qanunvericiliyinə uyğun olaraq, budəfəki kampaniyanın yüksək səviyyədə həyata keçirilməsi üçün səfərbər edilərək, bələdiyyə seçkisində YAP-ın namizədlərinin təşviqat plakatlarını qanunla müəyyənləşdirilmiş yerlərdə yapışdırıblar.

Yeni Azərbaycan Partiyası tərəfindən rayonda olan 23 bələdiyyə üzrə 219 nəfərin namizədliyi irəli sürülüb. Müvafiq prosedur qaydalarına layiqincə əməl etmək üçün partiya fəallarının iştirakı ilə treninqlər keçirilib. Məqsəd isə seçicilərin mütləq səsi ilə növbəti seçkidə də qalib gəlməklə, xalqın etimadını əməli işlərlə doğrultmaqdır.

### Ağstafa

Bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının seçki qərargahı Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü səhiyyə işçiləri keçirilib.

YAP Ağstafa rayon təşkilatının qərargahında keçirilən görüşü giriş sözü ilə rayon təşkilatının sədri Ramiz Tatarov açaraq qeyd edib ki, Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkiləri ilə bağlı apardığı işləri təhlil edərkən, belə qənaətə gəlmək olur ki, respublikada keçirilən bütün seçkilər, o cümlədən, bələdiyyə seçkiləri demokratik prinsiplər əsasında keçirilir: "Biz dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində səhiyyə işçilərinin yaxından iştirak edəcəklərinə əminik. Prezident İlham Əliyevin bütün sahələrdəki, o cümlədən, səhiyyə sahəsindəki islahatların davamlı şəkildə həyata keçirilməsində bələdiyyələr də artıq öz sözünü deməkdədir".

Görüşdə Ağstafa rayon mərkəzi xəstəxanasının baş həkimi Fatma Vəliyeva, uşaq xəstəxanasının baş həkimi İradə Batıyeva, həkimlərdən Teyyub Carçıyev, Xəyalə Ağakişiyeva və başqaları çıxış edərək, bələdiyyə seçkilərində yaxından iştirak edəcəklərini bildiriblər.






*Rəfiqə HÜSEYNOVA*
*ZÜMRÜD BAYRAMOVA*
*Nəzakət ƏLƏDDİNQIZI*

---

## Sinoptiklər dən xəbərdarlıq: Qar yağacaq



Sinoptiklər ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə əlaqədar xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dekabrın 4-dən 5-i axşamadək cənub-qərb küləyinin əsəcəyi, güclü şimal-qərb küləyi ilə əvəzlənəcəyi, temperaturun 3-5° enəcəyi proqnozlaşdırılır. Respublikanın rayonlarında isə dekabrın 4-ü axşamdan 6-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı bildirilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu dekabrın 5-də 3-5° enəcək. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 4-də Abşeron yarımadasında arabir güclənən cənub-qərb küləyinin axşam şimal-qərb küləyi ilə əvəz olunacağı gözlənir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq yarada bilər.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 4-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparacaqlar.

## Ərdoğan açıqladı: NATO-nun yenilənməsi qaçılmazdır



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun yenilənməsinin qaçılmaz olduğunu deyib. Anadolu agentliyi xəbər verir ki, Türkiyə Prezidenti bu fikri Şimali Atlantika Alyansının növbəti sammitinin keçiriləcəyi Londona səfərindən öncə Ankaranın Esenboğa hava limanında təşkil olunan mətbuat konfransında səsləndirib.

"NATO-nun özünü yeniləməsi qaçılmazdır. Üzv ölkələrin alternativ axtarmaq əvəzinə NATO-nu ortaq təhdidlər qarşısında daha güclü edəcək səylər göstərəcəyini, terrorla mübarizədə bizimlə həmrəylik nümayiş etdirəcəyini gözləyirik, - deyə Türkiyənin NATO-nun əvəzolunmaz üzvü olduğunu qeyd edən Prezident bildirib.

## 95 yaşlı Cimmi Karter yenidən xəstəxanaya aparılıb



ABŞ tarixində ən yaşlı sabiq Prezident olan 95 yaşlı Cimmi Karter sidik yollarının infeksiyası diaqnozu ilə yenidən xəstəxanaya yerləşdirilib. Bu barədə Karter Mərkəzinin nümayəndələri məlumat veriblər. Açıqlamada qeyd olunub: "ABŞ-ın sabiq Prezidenti Cimmi Karter sidik yollarının infeksiyasını müalicə etmək məqsədilə Corciya ştatındakı Amerikus şəhərində Fibi Samter tibb mərkəzinə qəbul edilib. O, özünü yaxşı hiss edir və evə qayıtmağını səbirsizliklə gözləyir. Karterin öz evində istirahət üçün xəstəxanadan buraxıldığı vaxt əlavə məlumat veriləcək".

# Ölkəmiz reallaşdırılan islahatlarla daha yeniləşmə və daha tərəqqi etmək yolunu götürüb

*Bəs müxalifət hansı addımları atacaq?*

***Ölkəmiz yeni və daha müasir siyasi, sosial, iqtisadi və struktur islahatlarına qədəm qoyub və bu sıralamada daha bir addım noyabrın 28-də Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının Prezidentə parlamentin buraxılması, eləcə də, erkən seçkilərin keçirilməsi ilə bağlı müraciətləri, dekabrın 2-də isə, bütövlükdə, Milli Məclis deputatlarının əksər çoxluğunun dövlət başçısına sözügedən təşəbbüs fonunda etdikləri müraciətləridir. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə görə, Milli Məclisin bu cür məsələləri müzakirə edib, qərar qəbul etmək səlahiyyəti var.***



O da məlumdur ki, Prezident İlham Əliyev Ona edilən müraciətləri nəzərə alaraq, parlamentin buraxılması məsələsinin konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərib. Eyni zamanda, Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclasında Milli Məclisin buraxılmasının konstitusiyaya uyğunluğu barəsində Azərbaycan Prezidentinin sorğusuna baxılaraq, Plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb. Sorğuya Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 4-də saat 12:00-a təyin edilmiş iclasına baxılacaq.

## Radikallardan fərqli olaraq, konstruktiv müxalifət nə düşünür?

Lakin ortada digər məqam da var - islahatçı hakimiyyətin yeniləşməyə doğru dinamik fəaliyyəti ilə yanaşı, struktur islahatlarında da köklü dəyişikliklər etməsi faktı. Bu baxımdan, daim hakimiyyətə qarşı radikal, qaragüruh, məntiqsiz və əsassız ittihamlarla çıxış edən sözdə müxalifət "liderlərinin" həmin yeniləşməyə barmaqarası baxması, yersiz iddialarla gündəmdə qalmaq cəhdləri elə sağlam düşüncəli ictimai rəy tərəfindən də hiddətlə qarşılanır. Belə ki, radikal təfəkkürə və dağıdıcılıq düşüncəsinə malik olan sözdə müxalifət anlamalıdır ki, 27 ilə yaxındır düşərgədə var-gəl edən "liderlər" getməli, onları yeni fikirli, sivil siyasi prinsiplərə malik olan gənclər əvəzləməlidirlər. Ancaq bütün bunların yerinə, radikallar dövlət rəhbərliyi tərəfindən qəbul edilən, xüsusilə, xalqın maraqlarına cavab verən qərarlara qarşı mənfur düşüncələrini irəli sürürlər. Çünki yaxşı anlayırlar ki, hətta erkən seçkilərdə belə uduzacaqlar və xalqdan heç bir dəstək ala bilməyəcəklər. Hansı ki, radikalçılıq, dağıdıcılıq təfəkkürünə malik olan müxalifət partiya və s. siyasi təşkilatlardan fərqli olaraq, konstruktivlik mövqeyi sərgiləyən müxalifət partiyaları növbədənkənar seçkilərə qədər növbəti iqtidar-müxalifət dialoqunun keçirilməsinin tərəfdarı olduqlarını qeyd edirlər.

## AMİP: "Müxalifətdə də islahatlara zərurət var"

Misal üçün, Azərbaycan Milli İstiqlal Partiyasının katibi Əli Orucov dialoq mühitinin olmasını çox vacib sayır. Onun sözlərinə görə, müxalifətin də özünə görə məsuliyyəti var. "Dialoq mühiti, həm də ona görə vacibdir ki, ölkənin problemlərinin həlli, qarşılıqlı etimad və inamın yaranması istiqamətində bir çox maneələri aradan qaldırmaq mümkün olar" deyə qeyd edən AMİP yetkilisi əlavə edib ki, bəziləri - özləri ni "ana müxalifət partiyası" kimi təqdim edən "liderlər" yanlış olaraq iqtidar-müxalifət dialoqunu bazarlaşma kimi ictimaiyyətə təqdim etməyə çalışırlar. "Qardaş Türkiyənin təcrübəsindəki iqtidar-müxalifət münasibətləri, iqtidar-müxalifət dialoqu bizim üçün də bir nümunə ola bilər" deyə qeyd edən Əli Orucova görə, sivil cəmiyyətlərdə bu müzakirələr və problemlərin həlli yolları küçələrdə, meydanlarda, internet resurslarında söyüş və təhqirlərdə deyil, parlamentlərdə, yaxud masa arxasında aparılır: "Təsadüfi deyil ki, Prezident İlham Əliyevin BDU-nun 100 illik yubileyində çıxışı zamanı toxunduğu məsələlərdən biri də bizi istəməyən qüvvələrin Azərbaycana qarşı atdığı və planlaşdırdığı məkrli niyyətləri barədə olub".

AMİP-in funksioneri müxalifətdə də islahatların aparılmasının vacibliyinə toxunaraq bildirib ki, belə islahatlara ciddi zərurət var.

## Fəzail Mustafa: "Bu gün "Milli Şura"nın yaymış olduğu cəfəng bəyanatda göstərilənlərin heç bir əsası yoxdur"

Bu arada, "BQP" sədri Fəzail Mustafa mətbuata açıqlamasında bildirib ki, dialoqlar keçirilib və artıq növbəti dialoqa ehtiyac yoxdur. Daha dəqiq desək, radikal və dağıdıcı müxalifətin təmsilçisi olan "Milli Şura"nın digər məsələlər ətrafında bəyanat səsləndirməsi də yersiz və gülüncdür: "Kim düşünürsə ki, Seçki Məcəlləsinə dəyişiklik etmək lazımdır, yanılır. Bu gün "Milli Şura"nın yaymış olduğu cəfəng bəyanatda göstərilənlərin heç bir əsası yoxdur. Düşünürəm ki, bunlar qeyri-real yanaşmalardır. Əslində, "Milli Şura" və onun çətiri altında öz fikirlərini ifadə edən Əli Kərimli qarşıdan gələn parlament seçkilərində məğlub olacağını dərk edərək, bu cür münasibət sərgiləyir. İndiki şəraitdə dəyirmi masanın keçirilməsinə heç bir ehtiyac yoxdur".

Ənənəvi müxalifətin Azərbaycanda heç bir nüfuzunun olmadığını da deyən F.Mustafa onların sosial dayaqlarının, demək olar ki, tam sıradan çıxdığını da xatırladıb: "Ancaq bəyanatlarla çıxış edirlər. Son olaraq, mühacir alverində çox ciddi zərbələr aldılar. Əgər bunlar, sözün həqiqi mənasında, özlərini çox ciddi müxalifət hesab edirlərsə, yanılırlar".

Beləliklə, fikirlər müxtəlif olsa da, fakt budur ki, radikal və dağıdıcılıq təfəkkürünə malik müxalifət reallaşdırılan çoxşaxəli islahatlardan qorxuya düşüb və hətta xalq üçün, dövlət üçün atılan hər bir addımdan qıcıqlanırlar. Normal müxalif düşüncəyə malik olanlar isə, bu addımları dəstəkləyir və boşboş bəyanatlar yaymağı doğru hesab etmir. Bütün hallarda isə, bu islahatlar nəticə olaraq, köhnəlmiş, naftalin qoxusu verən düşərgənin də sıradan çıxmasına şərait yaradacaq. Çünki ölkəmiz daha yeniləşməyə, daha tərəqqi etməyə doğru yol alıb.

***Rövşən RƏSULOV***



## YENİ İLƏ KÖHNƏ PROBLEMLƏRLƏ

**RƏFİQƏ**

***2019-cu ilin son astanasındayıq. Keşməkeşli ictimai-siyasi hadisələrlə geridə buraxdığımız köhnə ildə bir çox yadda qalan və insanlara müsbət təsir edən, xüsusilə, Prezident İlham Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqının yüksək rifahının təmin edilməsinə yönələn təəssüratlar yaşandı. 2018-ci il aprel ayının 11-də, yəni bir il öncə, keçirilmiş prezident seçkilərində İlham Əliyev seçicilərin 86,02 faizini toplayaraq, növbəti 7 il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçildi. Ötən bir ili səciyyələndirən əsas cəhət ondan ibarət oldu ki, həyat fəaliyyətinin, demək olar, bütün sahələrini əhatə edən dərin islahatlar həyata keçirildi və həyata keçirilməsinə başlanılan inqilabi islahatlar ölkənin tamam yeni inkişaf mərhələsinə qədəm qoyduğunu sübut edir.***

Ölkəmizin inkişaf və tərəqqisini gözü götürməyən, qazanılan hər bir uğura, hər bir müvəffəqiyyətə barmaqarası baxan daxili və xarici qüvvələr elə yenə də köhnə təfəkkürlərində, yenilənməyən düşüncələrində qaldılar. Necə ki, on beş il, iyirmi il, iyirmi beş il öncə olduğu kimi. Bu gün ənənəvi müxalifət adlandırılan dağıdıcılar, aqressivlər və aşırı radikallar toplumu 2020-ci ilə parçalanmalar, istefalar, ziddiyyətlər, qarşıdurmalar və qarşılıqlı ittihamlarla getməkdədirlər. Əlbəttə ki, müxalifətin belə bir vəziyyətdə növbəti ilə qədəm qoymaları arxasında 2019-cu ilin inqilabi islahatlar ili kimi baş verən ən əhəmiyyətli hadisələrdən olmasıdır. Çünki dövlət başçısının apardığı uğurlu inqilabi islahatlar siyasəti xalq və dövlətçilik üçün önəmli olan yekun nəticələri müxalifəti, sözün həqiqi mənasında, pəjmürdə etdi.

Nəticədə, bu gün onların bütləşdirdikləri Cəmil Həsənli, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və bu kimi fərdlər, nəinki düşərgəni düşdüyü böhranlı durumdan çıxarmağa nail olmadı, hətta vəziyyəti daha da gərginləşdirdi. Və 2020-ci ilə doğru sürünən, bir-birlərinin ayaqlarından dartaraq, özlərindən aşağıya doğru yuvarlatmağa çalışan "liderlər" çox ilgincdir ki, yenə də nəyəsə ümid edir, xilas olacaqlarını təsəvvürlərinə gətirirlər. Gör onların ümidləri nə günə qalıb ki, hətta ilin sonlarında, yeni ilə bir neçə həftə qalmış, adicə məişət olaylarını belə siyasiləşdirməyə cəhd göstərərək, 2020-yə "uğurla" girəcəklərini hesab edirlər. Düşərgə yetkililəri belə addımları ilə növbəti dəfə sübut edirlər ki, əlləri hər şeydən üzüldüyü zaman ən rüsvayçı əməllərə də əl atarlar. Ancaq bu 25 illər ərzində, sübut oluna-oluna təsdiqlənib ki, dağıdıcı müxalifət yeni ilə köhnə problemlərlə gedir və gedəcək də. Həmin problemləri isə özləri-özlərinə qazandırıblar. Ona görə də dağıdıcı düşərgənin satqın və əxlaqsızları yeni ili də uğursuz siyasətbazlıqlarla yadda qalacaq!

## Almaniyanın "Top Energy News" portalı TANAP qaz kəmərindən yazır

Almaniyanın "Top Energy News" portalında yerləşdirilən yazıda Azərbaycan və Türkiyə Prezidentlərinin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP təbii qaz kəmərinin Avropaya birləşən hissəsinin açılış mərasimində iştirak etdikləri bildirilir. AZƏRTAC xəbər verir ki, məqalədə TANAP barədə, onun Cənubi Qafqaz Boru Kəməri və TAP ilə birgə 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizini təşkil etdiyi qeyd olunub. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından çıxarılan qazın 6 milyard kubmetrinin TANAP vasitəsilə Türkiyəyə, 10 milyard kubmetrinin isə Avropa ölkələrinə məhz bu kəmər ilə nəql olunacağı vurğulanır. TAP konsorsiumunun noyabrın əvvəlində verdiyi məlumata istinad edilə yazıda boru kəmərinin Yunanıstan ərazisindən keçən 2 kilometrlik hissəsinin artıq qaz ilə doldurulduğu bildirilir. Həmçinin TAP kəməri ilə 10 milyard kubmetr qazın Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyaya çatdırılacağı vurğulanır.

## Tibbi sığorta haqqında Qanuna dəyişikliklər edilib

Dekabrın 3-də keçirilən Milli Məclisin növbəti plenar iclasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi 3-cü oxunuşda səsə qoyularaq qəbul edilib. Qeyd edək ki, 2020-ci ildən etibarən ölkəmizdə icbari tibbi sığortaya keçidlə bağlı "Tibbi sığorta haqqında" Qanunun 8 maddəsinə 126 dəyişiklik edilib.



## Daha 43 şəhidin 57 vərəsəsinə birdəfəlik ödəmə verilməsinə dair qərar qəbul edilib

Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası işlərinin davamı kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki Komissiya daha 43 şəhidin 57 vərəsəsinə birdəfəlik ödəmənin (11 min manat) verilməsinə dair qərar qəbul edib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, birdəfəlik ödəmələr yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürüləcək və bu barədə onlara rəsmi bildiriş göndəriləcək. Ümumilikdə 12 min 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ olduğu müəyyən edilib. Onlardan 11 min 791 şəhidin 17 min 558 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatı işləri aparılıb. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 96,1 faiz icra olunub.

# 2020-ci il - satqın və xəyanətkarların "ölüm ili"

*Dağıdıcı müxalifətin növbəti ildə qalıb-qalmaması böyük sual altında*

***Bu, absurddur. Bir də atalar düz deyir, ağacı qurd içindən yeyər. Çünki dağıdıcı düşərgənin satqın "liderləri" 25 ildən çoxdur ki, bu uğursuz yolu getməkdədirlər. Yola salacağımız 2019-cu ili də, uğursuzluqla başa vurmaları, artıq faktdır. Cari il ərzində, bu düşərgədə fəaliyyət göstərən AXCP, Müsavat və s. siyasi təşkilatlar nə xalqdan, nə də xidmət etdikləri xarici təşkilatlardan dəstək almağı bacarmadılar. Əksinə, partiyadaxili qarşıdurmalar, ziddiyyətlər və satqınçılıqları, özlərini "ana müxalifətin liderləri" qismində zorla ictimai rəyə sırımağa çalışan psevdomüxalifətçilər didişmələrin və qarşılıqlı ittihamların sayını artırmaqla, siyasi meydanda yoxluqlarını nümayiş etdirdilər.***



Əlacları hər şeydən üzülən bu zəlillər siyasi gündəmdə qalmaq üçün son anda bir neçə biabırçı aksiya keçirdilər və bu istəkləri də bir nəticə vermədi. Bu gün də, ilin sonunda keçiriləcək bələdiyyə seçkiləri ərəfəsi qranta satılan Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli, Xədicə İsmayıllı, Leyla Yunus və... bu kimi əxlaqsız və mənəviyyatsızlar dəridən-qabıqdan çıxaraq, ölkədə siyasi sabitliyin pozulmasına, əldə olunan uğurlarımıza böhtan atmaqla, erməni nökərçiliyinə "sadiq" olduqlarını nümayiş etdirməklə, xalqın nifrətinə düçar olmaqdadırlar.

## Ölü müxalifətin puç olan aqibəti...

Müxalifət düşərgəsinin fəaliyyəti ətrafında proqnozlar verən politoloq Namiq Mirinin sözlərinə görə, dağıdıcı müxalifət siyasi aktivlik göstərməməklə yanaşı, cəmiyyətlə işləməyi də kənara qoyduğu üçün 2019-cu ildə siyasi aktivlik olmadı, müxalifət təşkilatlarının keçirdiyi aksiyalara qatılım az oldu və bu aksiyalar fiaskoya uğradı. O, qarşıdan gələn 2020-ci ildə də müxalif düşərgənin bənzər aqibətlə qarşı-qarşıya qalacağını istisna etməyib və bildirib ki, müxalifətçilər 2020-ci ilin parlament seçkisi ili olduğuna və bu səbəbdən, öz-özünə aktivlik yaranacağına, mitinqlərdə kütləviliyin olacağına ümid edəcəklərsə, yenə də fiasko qaçılmaz olacaq. "Bundan sonra keçiriləcək mitinqlərə də, partiya fəallarından başqa, heç kim qatılmayacaq" deyə qeyd edən politoloqun sözlərinə görə, 2020-ci ildə müxalifətin böyük kütlələrin qatıldığı mitinqlər keçirəcəyini söyləmək üçün hansısa əlamətlər görünmür.

Beləliklə, politoloqun fikirlərindən belə nəticəyə gəlmək mümkündür ki, nəinki 2020-ci ildə, eləcə də, ondan öncəki illərdə də sözügedən düşərgə heç bir uğur qazanmayıb, ona görə də, növbəti illərdə də onların aqibətinin dəyişilməyəcəyini bəri başdan proqnozlaşdırmaq olar. "Bunu fəaliyyətsizlik adlandırsaq, daha doğru olardı" deyən N.Miri cəmiyyətin də bu cür müxalifəti ciddiyə almamasını doğru və qəbul edilən hesab edir: "Yəni müxalifətin hansısa təşkilatı yenə aksiya keçirəcək və yenə də xalq aksiyaya qatılmayacaq. İnamsızlıq mühiti davam edəcək. İnamsızlıq mühiti davam etdikcə, hətta seçki ili olsa da, ölkədə siyasi aktivliyi, xalqın mitinqlərə qatılmasını gözləmək özünü aldatmaqdan başqa, bir şey olmaz".

Göründüyü kimi, baş verənlərin, bilavasitə müxalifətyönlü insanlar tərəfindən etiraf olunması isə, əslində, reallığın tam əksidir. Bu baxımdan, artıq tam əminliklə söyləmək mümkündür ki, dağıdıcı müxalifət daha bir uğursuz ili geridə qoymaq ərəfəsindədir. Və bütün bu deyilənlər onu sübut edir ki, 2020-ci il də onlar üçün "ölüm ili" olacaq.

**Rəfiqə HÜSEYNOVA**

## Ermənistanda yenə də etiraz aksiyaları baş qaldırıb



"Daşnaksütyun" Gənclər Birliyinin nümayəndələri polis kordonundan keçərək nazirlik binasına girməyə çalışırlar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, "Daşnaksütyun" Gənclər Birliyinin nümayəndələri Təhsil, Elm, Mədəniyyət və İdman naziri ilə görüşmək fürsəti əldə etmədiyindən Araik Arutyunyanı müstəqil görüşməyə çağırıblar.

Gənclər polis kordonunu sındıraraq nazirlik binasına girməyə çalışırlar. Artıq nazirlik binasının qarşısında gərgin vəziyyət yaranıb. Ermənistanda yenə də etiraz aksiyaları baş qaldırıb. Xatırladaq ki, bir gün əvvəl "Daşnaksutyun" Gənclər Birliyinin nümayəndələri nazir Araik Harutyunyanla görüş tələb edərək Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin binası önünə toplaşmışdılar. Nümayişçilər bildiriblər ki, onlarla görüşmək üçün nazirə yarım saat vaxt veriblər.

## Mərkəzi Bank: Pul bazası 10,6 milyard manat təşkil edib



Dekabrın 1-nə Azərbaycanda pul bazası 10 milyard 674,5 milyon manat olub. AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, bu göstərici noyabrın 1-i ilə müqayisədə 375,7 milyon manat çoxdur. Qeyd edək ki, keçən ilin sonuna ölkədə pul bazası 9 milyard 545,7 milyon manat təşkil edib.

## Dünya Meteorologiya Təşkilatı: cari onillik ən isti dövr ola bilər

Cari onillik meteoroloji müşahidələrin başladığı vaxtdan bəri ən isti dövr ola bilər. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə məlumat Dünya Meteorologiya Təşkilatının Madriddə keçirilən iqlim üzrə COP25 konfransında təqdim olunan məruzəsində yer alıb.



2019-cu ildə dünya temperaturu (yanvar ayından oktyabra qədər olan məlumat) sənayeləşmədən öncəki dövrlə müqayisədə 1,1 dərəcə yüksək olub. Cari il meteoroloji müşahidələrin başlandığı vaxtdan indiyədək qeydə alınan ən isti illər arasında ikinci və ya üçüncü yeri tutacaq. Ən isti il isə əvvəlki kimi 2016-ci ildir. "Sonuncu beşillik (2015-2019-cu illər) və onillik (2010-2019-cu illər) çox güman ki, meteoroloji müşahidələrin başladığı vaxtdan bu yana ən isti dövrlər olacaq", - təşkilatın məruzəsində belə deyilir. 2018-ci ildə atmosferdə karbon qazının miqdarı rekord səviyyəyə çatıb və 2019-cu ildə artmaqda davam edib. Qrenlandiya və Antarktidada buzlaqların əriməsi dəniz səviyyəsinin yüksəlməsinə səbəb olur.

Qeyd edək ki, dekabrın 2-13-də Madrid şəhərində Çilinin sədrliyi ilə BMT-nin iqlim dəyişikliyi barədə çərçivə konvensiyası tərəflərinin konfransı (COP25) keçirilir. Konfransda 200-ə yaxın ölkənin nümayəndəsi iştirak edir.

## Yad daşları özününkülərə atan "bədbəxt"lər



**Təhmasib Novruzov**

***Uşaqlıq və gənclik yaşlarımda eşitdiyim çox rəvayətlər, hekayətlər var ki, hər bir həmyaşıdım kimi, mən də o zaman bunları, sadəcə, əyləncə xatirinə dinləyərdim. Bu rəvayət və hekayətlərin fəlsəfəsini, daşıdığı fikir yükünü doğru-düzgün dərk eləməsəm də, maraqlı olduğuna görə dinləyər və yaddaşıma həkk edərdim. Yaşlandıqca, həyatın məngənələrində sıxılıb-buraxıldıqca, əyləncə kimi dinlədiyim həmin rəvayət və hekayətlərin həyat fəlsəfəsinin mahiyyətini özündə necə ehtiva etdiyini anlamağa başladım...***

O illərdə qəribə bir hekayə də eşitmişdim: "Deyilənə görə, keçmiş zamanlarda bir kənddə hər kəsin çox hörmət bəslədiyi Süleyman adlı kişi yaşayırmış. Bu kişiyə hörmət gətirən əsas amil də o imiş ki, heç kimin qəlbini qırmaz, hamı ilə mehriban davranar, hətta onu təhqir edənə də güldən ağır bir kəlmə söz deməzmiş. Günlərin bir günü kənddə Süleyman kişinin hamı tərəfindən belə sevilməsini həzm edə bilməyən (Necə ki, indiki iqtidara xalqın sevgisini həzm edə bilməyən müxalifət adlanan bəzi siyasət dəllalları həzm edə bilmir) bir-iki nəfər yığışıb, həmin kənddə yaşayan "Bəxtəvər" təxəllüsü ilə tanınan ruhi xəstə birinə yeməkdən-içməkdən alıb qızışdırırlar ki, Süleyman kişini əsəbləşdirsin. "Bəxtəvər"i öyrədirlər ki, gedib gecə yarısı Süleyman kişinin evinə daş atıb qaçsın. Gecə, hamının yatdığı saatlarda "Bəxtəvər"gəlir Süleyman kişinin evinə beş-altı daş atıb qaçır. Bir gün, iki gün, Süleyman kişidən səs-səmir çıxmır. "Bəxtəvər" görür ki, kişi durub çıxır həyət qapısının (yəni darvazanın) ağzına, o tərəfbu tərəfə baxır, sonra da başını yelləyib gedir, bir kəlmə söz belə işlətmir. Nəhayət, bir gecə daşı o qədər çox atır, elə səs-küy salır ki, evdəki qadınlar-uşaqlar da səsə oyanıb, qorxuya düşürlər. Bu vəziyyətdən pəjmürdə olan Süleyman kişi dözməyib, həyət qapısının qarşısına gəlir və səsini bir qədər qaldırıb deyir: "Ay daş atan bəxtəvər, daşın da bir vaxtı var. Arvad-uşaq yatıb axı..." Sözləri eşidən "Bəxtəvər" Süleyman kişinin daşı onun atdığını bildiyini güman edir və gizləndiyi yerdən çıxır, gəlir Süleyman kişinin yanına və daşları onun atdığını hardan bildiyini soruşur. Süleyman kişi deyir ki, mən sənin atdığını bilmirdim, söyüş əvəzinə daş atanın qəlbinə toxunmamaq üçün "bəxtəvər" sözünü işlətdim. Bu sözləri eşidən yarımağıl "Bəxtəvər" daş atmasının səbəbini açıqlayır və ondan üzr istəyir. Sonra sual verir ki, niyə deyir daşın vaxtı var? Süleyman kişi azca gülümsəyib, cavab verir ki, gecənin bu vaxtı evə daş atan şübhə yoxdu ki, kişidi. Yəqin evin kişisi ilə bir haqq-hesabı ola bilər. Kişi də bütün günü çöldəbayırda olur. Daşı da çöldə-bayırda da ata bilər. Odur ki, deyirəm, daş atmağın bir vaxtı var...

İndi oxucum deyəcək ki, bu rəvayəti niyə danışıb vaxtımızı alırsan? Bir az səbr edin, indi açmasını deyirəm, siz də bilin. Bütün demokratik ölkələrdə olduğu kimi, ölkəmizdə də iqtidar və ona opponentlik edən müxalifət var. Müxalifətin vəzifəsi də, digər demokratik ölkələrdə olduğu kimi, hakimiyyəti gözdən salmaq, onun siyasətinin yanlış olduğuna xalqı inandırmaq və özünə tərəfdarlar toplayıb, seçkilərdə qalib gəlib hakimiyyətə yiyələnməkdən ibarətdir. Bizim bəzi müxaliflərimiz isə xalqa özünü sevdirmək, xalqdan dəstək almaq əvəzinə, gedib oturublar düşmənlərimizin qucusunda, ağızlarına qənfetdən-zaddan qoyan kimi, başlayırlar çığırıb-bağırmağa. Yəni həmin düşmənlər başqa variantlarla Azərbaycan iqtidarını tutduğu yoldan döndərə bilmədiklərindən,əl atırlar "daş atan bəxtəvər (oxu:bədbəxt)lər"ə. Bu bədbəxtlər də, ağına-bozuna məhəl qoymayıb, vaxtlı-vaxtsız iqtidarı başlayırlar "daşlamağa". İş o yerə çatıb ki, iqtidardan istədikləri korrupsiyasız cəmiyyət uğrunda mübarizəni, yenilik uğrunda mübarizəni sürətlə həyata keçirən iqtidara "daş" atırlar. Düşünmürlər ki, dünyanın yarısı türk qənimi olduğu, düşmənlərimiz başımızın üstündə qara buludlar puflədiyi indiki zamanda, bu "daşlar" iqtidara deyil, birbaşa dövlətə tuşlanmış olur. İqtidar "yuxarıdan inqilab" deyilən çox ciddi, çox ağrılı və həm də çox riskli bir siyasi kurs götürüb. Ən azı, belə bir vaxtda belə iqtidara daş atanlar rəvayətdəki Bəxtəvərin səviyyəsində olanlardır. İndi bildiniz, bu rəvayəti danışıb niyə qızıl kimi vaxtınızı məşğul elədim? Rəvayətdəki Süleyman kişinin kəlamında balaca bir düzəliş etsək, lap elə bizim əl müxalifətimizin indiki fəaliyyəti üçün deyilmiş kimi səslənir: "Ay daş atan bədbəxtlər, daşın da öz vaxtı var!"

# Heydər Əliyev - Azərbaycanda vətəndaş cəmiyyəti və insan haqları

***Azərbaycan dövləti Heydər Əliyevin müəllifi olduğu konstitusiyamızda təsbit olunan qanunlarla və Ulu Öndərin tükənməz enerjisi, intellekti və xarizmatik gücünün sayəsində, demək olar ki, hər gün, hər saat yeni-yeni layihələrlə inkişaf etdirilərək bugünkü hüquqi-demokratik və sivil səviyyəsinə gəlib çatmışdır.***

İstər hüquq, istər sosial həyat, istər mədəniyyət və incəsənət sahəsindəki böyük uğurlarımız Heydər Əliyev siyasətinin milli dövlət quruculuğu ideyalarının gerçəkliyini, davamlılığını elmi obyektivliklə təsdiq edir və elmlərarası istiamətdə tədqiqatlara meydan açır.

Məqamı olduğu üçün biz Ulu Öndərin siyasi irsinin böyük tədqiqatçısı, görkəmli akademik Ramiz Mehdiyevin bir qiymətli fikrini burada misal gətirmək istəyirik. Alim göstərir ki, "Bu gün qlobal dünyaya inteqrasiya edərkən, biz bilməliyik ki, Heydər Əliyev Azərbaycan xalqının milli "Mən"ini, ənənələrini, dilini, tarixini və sosiomədəni fonunu qorumağa necə böyük əhəmiyyət verirdi."

Milli dövlət və dövlət quruculuğu problemini həmişə aktual edən ən əsas faktor vətəndaş və daha konkret desək, vətəndaş cəmiyyəti məsələləridir. Bu isə mahiyyətcə dövlətin ali məqsədi xalq və millət maraqlarına münasibətini əks etdirməklə, öz üzərinə azadlıq, plüralizm, müstəqil şəxsiyyət normalarına hörmət bəsləmək və onu inkişaf etdirək vəzifəsini götürür.

Tarixən insan cəmiyyətləri ilə eyni vaxtda yaranmış, kütlənin ən xırda tələbat ehtiyaclarından tutmuş, böyük hüquqi maraqlarına kimi, çox geniş bir sahəni əhatə edən vətəndaş cəmiyyəti, bütün digər ictimai sahələr kimi, ən yetkin halına I əsrdə çatmışdır.

İlk növbədə, dövlət daxilində qeyri-dövlət, qeyri-hökumət hakimiyyəti mahiyyətini kəsb edən vətəndaş cəmiyyəti bütün maraqları şəxsiyyət və vətəndaş üzərinə cəmləyib, onun müstəqil hakimiyyət prinsiplərini irəli sürürdü.

Bu qeyri-hökumət sisteminə müxtəlif sosial qruplar - demokratik institutlar, ictimai birliklər, siyasi partiyalar, habelə, məktəblər, dövlət daxlində qeyri-dövlət iqtisadi sahələri, məsələn, sahibkarlıq faktorları, həmçinin, ənənəvi rəsmi ailədən fərqlənən ailə, müstəqil məhkəmələr, müstəqil mətbuat, azad seçki hüququ, azad dini sahələr və s. daxil olmaqla, məfhumlar və onların daşıdıqları mənalardan da aydın olduğu kimi, ayrıca bir dövlət, elə sadə desək, cəmiyyət ideyaları düşünülür.

Vətəndaş cəmiyyətinin bütün prinsipləri dövlətə münasibətdə insanda-şəxsiyyətdə və onun dövlətdə konstitutsiya hüququnun qorunmasını ehtiva edir. Dövlətin vətəndaşların rifahı, hüquqlarının müdafiəsinin tənzimlənməsi üçün qəbul etdiyi qərarlar necədirsə, vətəndaş cəmiyyəti prinsipləri də elədir. Başqa cür desək, hakim siyasi rəhbərlikdən tələblərin təbii hüquqların qeyd-şərtsiz tanınması, qorunması, mülkiyyət məsələləri, iqtisadi azadlıq, şəxsiyyət toxunalmazlığı, qanun qarşısında hamının bərabərliyi, hüquqi dövlət, plüralizm, danışıqlar, sülh, sosial tərəqqi üst-üstə düşməklə yenə xalq-dövlət, millət-dövlət və vətəndaş-dövlət həmrəyliyini şərtləndirir.

Təsadüfi deyil ki, dövlət və millət vəhdəti-həmrəyliyi millətin-vətəndaşın bu hüquqi-mənəvi əsaslar sistemini qoruyub yaşatması ilə ölçülürsə, dövlətin də öz vətəndaşlarına bu mirası qoruyubsaxlamaq, tətbiq etmək və gələcəyə ötürmək üçün imkanlar yaratması, azadlıqlar verməsi, onu qanun kodeksləri və qüvvətləndirməsi ən ümdə vəzifələrdəndir. Əgər bu dövlət-millət, vətəndaş-dövlət vəhdəti pozularsa, etnomilli tərəqqidə böyük, qarşısıalınmaz uçurumlar baş verə bilər və tarixin buna çox sayda misalları vardır.

İnsan-şəxsiyyət mənafeyini təmsil edən vtəndaş cəmiyyətlərinin bu əsas prinsiplərinin nəzərə alınmadığı, inkar və rədd edildiyi tarixi-siyasi sistemlər də olmuşdur. Demokratik hüquqların taptalandığı, vicdan azadlığının vətəndaşların milli varlığını əks etdirən ana dilini, ondan az əhəmiyyət kəsb etməyən dinini, adət-ənənələrini, tarixi keçmişini, milli identikliyini-kimliyini unutduran dövrlər, dövlətlər və liderlər az olmayıb. Elə 70 il daxil olduğumuz, ateizm buxovlarına büründüyümüz sovet quruluşunu götürək. Siyasi sistem cəmiyyətdən bütün inancların-milli etnoidentliyin ziddinə gedərək, ateizm buxovlarına bürünməyi tələb edir, yaranan ədəbiyyat və sənət əsərlərində tolalitar prinslplər təbliğ və təlqin olunurdu.

Həmçinin də, vətəndaşın sosial-iqtisadi tələbləri, demokratik azadlıqları, bütünlükdə, vətəndaş cəmiyyəti qeyri-işlək sistem halında idi. Azadlıq, ədalət, həqiqət kimi vətəndaş əxlaqı şüurunu psixoloji olaraq, yetişən nəslin şüurundan silmək təhlükəsini gücləndirir, kütləni dövlətdən asılı vəziyyədə saxlayırdı. Buna görə də, həmin siyasi quruluşun tarixə totalitar, gücün bir əldə toplandığı avtoritar, qeyri-humanist, sırf siyasi rejim xarakterində iz salması heç də təsadüfi deyil.

Belə ki, bir dövlət siyasətində xalq kütlələrinin ali vətəndaş cəmiyyəti ideal və ideyalarının, azadlıq arzuları və hisslərinin, kütləvi olaraq, vətəndaş şəxsiyyətlərinin, geniş fəlsəfi anlamda əxlaqının- azadlıq, birlik maraqlarının, başqa cür desək, "mən" və "mentalitet" varlıqlarının onilliklər boyu əzilib-taptalanması vətəndaş-dövlət münasibətlərini sistem şəklində zəifləməklə, yekrəng siyasi sovet ideologiyasını içdən, daxildən dağıtmaqla, onun sonu olmayan tarixini hazırladı və nəticədə, məhz millətlərin və xalqların ümumi istəklərinə uyğun bir "yenidənqurma" hadisəsi ilə Sovet imperiyası tamamilə süquta uğradı.

Heydər Əliyev 1993-cü il 10 oktyab tarixində Respublika Sarayında müstəqil Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasinimdəki nitqində SSRİ imperiyasından yenicə qopmuş və ölkənin səriştəsiz siyasi rəhbərliyinin qeyri-hüquqi və qeyri-demokratik addımları nəticəsində, vətəndaş müharibəsi hədinə gəlib çatmış milli vətəndaş cəmiyyətinin dövlət-millət, millət-dövlət istiqamətində qarşıda dayanan mühüm vəzifələrin monolit və dinamik idarəçilik münasibətləri proqram layihəsini irəli sürdü.

Bu proqramda tarixən və müasir dünyanın bütün qabaqcıl ölkələrinin vətəndaş cəmiyyətlərinin maraqlarını birləşdirən müddəalar zəncirvari surətdə olmaqla, bütöv halda yetkin müstəqil qeyri-hökumət cəmiyyətinin ideya prinsiplərini əks etdirirdi.

"Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək, demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə, bir daha söz verirəm ki, biz, məhz bu yolla gedəcəyik. Bu yolla getmək həm tarixi keçmişimizə uyğundur, həm də bir müstəqil dövlət kimi, dünya sivilizasiyasına daha yaxından qovuşmaq üçün lazımı şərtdir. Bunun üçün Azərbaycanda bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır."

Heydər Əliyev taleyüklü andiçmə mərasimində bəşərin ən ali hissi və əxlaq anlamının ən yüksək keyfiyyəti insan azadlığı, vicdan azadlığı, söz, dil azadlığını xalqının bütün vətəndaşlarına nisbətdə müasir siyasi müstəvidə demokratik prinsiplər olaraq önə çəkib, bunlara sahib çıxacağını və deməli, milli dövlət ideyasını tamamlayan milli Ümummilli Lider mövqeyini ifadə edirdi. Bu isə, ölkədə vətəndaş cəmiyyətinin əsası kimi böyük əhəmiyyət daşıyır.

Ulu Öndərin andiçmə mərasimindəki nitqindən gətirəcəyimiz bir misalla bunu təsdiqləyə bilərik: "Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, vicdan azadlığı-bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik. Azərbaycanda çoxpartiyalı cəmiyyət yaranmaqdadır, bir çox partiyalar yaranıb və bundan sonra da yaranacaqdır. Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcəkdir və çoxpartiyalı cəmiyyət, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir".

İstər hüquq, istər sosial həyat, istər mədəniyyət və incəsənət sahəsindəki böyük uğurlarımız Heydər Əliyev siyasətinin milli dövlət quruculuğu ideyalarının gerçəkliyini, davamlılığını elmi obyektivliklə təsdiq edir və elmlərarası istiamətdə tədqiqatlara meydan açır. Məqamı olduğu üçün biz Ulu Öndərin siyasi irsinin böyük tədqiqatçısı, görkəmli akademik Ramiz Mehdiyevin bir qiymətli fikrini burada misal gətirmək istəyirik. Alim göstərir ki, "Bu gün qlobal dünyaya inteqrasiya edərkən, biz bilməliyik ki, Heydər Əliyev Azərbaycan xalqının milli "Mən"ini, ənənələrini, dilini, tarixini və sosiomədəni fonunu qorumağa necə böyük əhəmiyyət verirdi."

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Övladlığa götürmə ilə bağlı yeni dəyişiklik nədən ibarətdir?

***Dünən Milli Məclisin plenar iclasında Ailə Məcəlləsinə övladlığa götürmə ilə bağlı təklif edilən dəyişiklik üçüncü oxunuşda qəbul edilib. SİA-nın xəbərinə görə, dəyişiklik Ailə Məcəlləsində övladlığagötürmə sahəsində idarəetmə mexanizminin, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə onları övladlığa götürməyi arzu edən şəxslərin uçotunun təkmilləşdirilməsi, eləcə də övladlığagötürmə prosesində şəffaflığın təmin edilməsi, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsini nəzərdə tutub.***



Mövcud qanunvericiliyə əsasən, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların 3 pilləli uçotu aparılırdı. İlkin uçotu yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları, mərkəzləşdirilmiş uçotu 3 yaşına qədər uşaqlar üzrə Səhiyyə Nazirliyi, 3 yaşından yuxarı uşaqlar üzrə isə yeni yanaşma təkmil uçotun aparılmasına, uçotu aparılan şəxslər haqqında məlumatların real vaxt rejimində yenilənməsinə imkan verəcək. Eyni zamanda layihədə övladlığa götürmə prosesinin 3 mərhələdə aparılması nəzərdə tutulub.

Bunlar- övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması, övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi (bu mərhələnin özündə də övladlığa götürmək istəyən şəxslərlə müsahibələr və mənzil şəraitinin yaxşılaşdırılması, təlim, uyğunlaşma, müəssisədə uşaqlarla görüş və sınaq müddətində ailədə yerləşdirmə kimi alt mərhələlər olacaq) və övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi mərhələlərindən ibarətdir. Bu mərhələlər övladlığa götürmə prosesində övladlığa götürmək istəyən şəxslərin həm həyat şəraitinin, həm övladlığa götürməyə olan motivlərinin, həmçinin uşaqla onların uyğunlaşmasının müəyyən edilməsinə imkan verəcək. Həmçinin nikahda olan şəxslər üçün minimum yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaş kimi müəyyən edilib.

***Nailə Məhərrəmova***

## ELAN

Əliyev Arzuman İsa oğlunun adına verilmiş Abşeron rayonu, Fatmayi kəndində yerləşən 11,5 sot torpağın kupçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya ixtisası üzrə IV kurs tələbəsi Hüseynova Şəhla Müşviq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Bakı şəhər Mədəniyyət Baş İdarəsi, incəsənət və musiqi məktəb direktorları 24 saylı Uşaq Musiqi Məktəbinin direktoru, respublikanın əməkdar müəllimi Nadir Babayevə qardaşı

**ADİL BABAZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

* * *

Məmmədhəsən Məmmədov ailə üzvləri ilə birlikdə respublikanın əməkdar müəllimi Nadir Babayevə qardaşı

**ADİL BABAZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

* * *

"Səs" "Media" qrupunun rəhbəri Bəhruz Quliyev kollektiv adından "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə qayınatası

**İsmayıl Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## Lionel Messi 6-cı dəfə "Qızıl top" mükafatını qazanıb




Dekabrın 3-də Parisdəki "Şatle" teatrında FIFA və "France Football" jurnalı 2019-cu ilin ən yaxşı futbolçusuna verilən "Qızıl top" mükafatının sahibinin adını açıqlayıb. "Qızıl top" mükafatına Argentina millisinin və İspaniyanın "Barselona" klubunun futbolçusu Lionel Messi layiq görülüb. O, səsvermə nəticəsində "Yuventus"un əsas qol silahı sayılan Kriştiano Ronaldunu və "Liverpul" komandasının müdafiəçisi Virgil van Deyki qabaqlayıb.

Mərasimdə, həmçinin FIFA tərəfindən ən yaxşı qapıçı İngiltərənin "Liverpul" klubunun qapıçısı Alisson Beyker, ən yaxşı qadın futbolçusu ABŞ yığmasının yarımmüdafiəçisi Meqan Rapino, ən yaxşı gənc (20 yaşa qədər) futbolçusu adına isə Hollandiya millisinin və İtaliyanın "Yuventus" klubunun müdafiəçisi Mateas De Liqt layiq görülüb.

"France Football" nəşri "Qızıl top" mükafatını 1956-cı ildə təsis edib. İndiyə qədər argentinalı Lionel Messi 6, portuqaliyalı Kriştiano Ronaldu 5 dəfə, fransız Mişel Platini, həmçinin hollandiyalılar - Yohan Kroyf və Marko van Basten üç dəfə bu mükafata layiq görülüb. Xatırladaq ki, ötən il "Qızıl top" mükafatı Madridin "Real" komandasının xorvatiyalı yarımmüdafiəçisi Luka Modriçə təqdim olunub.



## İbrahimoviç "Milan"a qayıdır

Bu ayın sonu "Los-Anceles Qelaksi"dən ayrılacaq Zlatan İbrahimoviçin yeni klubu müəyyənləşmək üzrədir."The Telegraph" xəbər verir ki, 38 yaşlı hücumçu karyerasını "Milan"da davam etdirməyə yaxındır. İsveçli oyunçu uzun müddət düşündükdən sonra sabiq klubuna qayıtmağa qərar verib. Artıq bununla bağlı tərəflər arasında razılıq əldə olunub. Qeyd edək ki, İbrahimoviç 2010-2012-ci illərdə də "Milan"da oynayıb.

## Balaca gimnastımız bir ayda dördüncü medalını qazanıb




Budapeştdə bədii gimnastika üzrə X beynəlxalq "Yeni il" kuboku turniri keçirilib. Turnirdə Macarıstanla yanaşı, Azərbaycan, İtaliya, Kipr, İsrail, Ukrayna, Slovakiya, Çexiya, Latviya, Rusiya, Gürcüstan, Xorvatiya və İrlandiyanı təmsil edən 21 klubdan 400-ə yaxın gimnast mübarizə aparıb.

AZƏRTAC xəbər verir ki, həmyerlimiz - on yaşlı Mina Abbasova bu dəfə də üçrəngli bayrağımızı zirvəyə qaldıraraq 2010-cu il təvəllüdlü gimnastlar arasında birinci olub. Bununla da balaca gimnastımız noyabr ayı ərzində dördüncü medalını qazanıb. Bu, onun ümumilikdə 39-cu (15 qızıl, 20 gümüş, 4 bürünc) medalıdır. M.Abbasovadan başqa Azərbaycanı bu yarışlarda "Gym Kids" klubunun üzvləri də təmsil ediblər. Müxtəlif yaş qruplarından olan gimnastlarımız - Fatimə Əlizadə (2012), Aybəniz Qafarova (2014), Samirə Rzayeva (2014), Daniela Səfərova (2010) birinci yeri tutublar. Məryəm Novruzova (2013), Məryəm Baloğlanova (2012) və Alina Haşimova (2010) gümüş medallarla kifayətlənməli olublar.

## Azərbaycan Qran-prisi üçün tikinti-quraşdırma işlərinə martda başlanılacaq




"Formula 1" üzrə 2020-ci il Azərbaycan Qran-prisi üçün Bakıda tikinti-quraşdırma işlərinə mart ayında başlanılacaq. "Report" xəbər verir ki, bu barədə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) Marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai bildirib. Qeyd edək ki, 2020-ci il Azərbaycan Qran-prisi 5 - 7 iyunda keçiriləcək.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600